QARABAĞ AZƏRBAYCANDIR!

## Almaniyalı alimdən "Spiegel"ə məktub: "İrəvanda 1918-ci ilədək erməni hökmdarlığı olmayıb"



4

# Azərbaycan dünya birliyi üçün etibarlı tərəfdaşdır



4

SƏS
№ 009 (6692) 18 yanvar 2023-cü il. Qiyməti 60 qəpik

## Prezident İlham Əliyev Davosda bir sıra mühüm görüşlər keçirib

# 20 yanvar 1990-cı il:
## bir qərinənin o başı və bu başı




8

## "Azərbaycan tərəfindən Laçın yolunun bağlanması barədə iddialar əsassızdır"



5

## "Artımlar hər bir ailənin büdcəsini xeyli gücləndirmiş olacaq"



6

## Ermənistanın son ümidi - Fransa da əldən çıxır...



11

## "Biz gec-tez ikinci Böyük Qayıdışın da şahidi olacağıq"



7

## Bu futbolçu həftədə 1 milyon 656 min manat qazanır!



16

# Vətəndaşların rifahı dövlət siyasətinin mərkəzində

*Prezidentin "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən Azərbaycanda minimum aylıq əməkhaqqı 345 manat müəyyən edilib*

Prezident İlham Əliyev "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" yanvar ayının 5-də Sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biridir. Son illərdə bu istiqamətdə ciddi irəliləyişlərə nail olunub, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin, əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımlar atılıb.Sərəncamla Nazirlər Kabinetinə 10 gün müddətində əmək pensiyasının minimum məbləğinin 280 manata çatdırılmasına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək, sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini Azərbaycan Prezidentinə təqdim etmək; Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasını təmin edib Azərbaycan Prezidentinə məlumat vermək tapşırılıb.



## PREZİDENT İLHAM ƏLİYEVİN SİYASƏTİNİN MƏRKƏZİNDƏ HƏR ZAMAN VƏTƏNDAŞ RİFAHININ TƏMİNATI DAYANIB

Bəli, sosial dövlət olan Azərbaycanda vətəndaşların maraqları yüksək səviyyədə təmin edilir. Belə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan sosial islahatlar dövlət başçısının daim vətəndaşları düşündüyünü və onların sosial rifahının yaxşılaşdırılması istiqamətində daim addımlar atdığını bir daha təsdiqləyir. Bu baxımdan, cari ilin yanvar ayının 5-də Prezident İlham Əliyevin "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" sərəncamı əhalinin sosial rifahının qorunmasına xidmət edən növbəti Sərəncamıdır. Sərəncama əsasən, Azərbaycanda minimum aylıq əməkhaqqı 345 manat müəyyən edilib. Bu isə bir daha isbatlayır ki, Prezident İlham Əliyevin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinə uyğun olaraq aparılan islahatlar nəticəsində son 4 ildə əmək müqavilələrinin sayı 30 faiz, illik əməkhaqqı fondu 2 dəfədən çox və 2022-ci ilin ilk rübündə də 11,1 faiz artıb. Xüsusi olaraq qeyd edilməlidir ki, şəhid ailələri və müharibə əlillərini xüsusi qayğı ilə əhatə edən dövlət başçısının fərman və sərəncamları ilə həmin kateqoriyadan olanların sosial təminatı mütəmadi gücləndirilib, onlara yönələn sosial ödənişlərin də son 4 ildə ardıcıl şəkildə artırılması təmin edilib. Göründüyü kimi, 2018-ci ildən ötən 4 ildə həyata keçirilən sosial tədbirlər bir daha Prezident İlham Əliyevin andiçmə mərasimində çıxışında söylədiyi "Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar" fikirlərinin yüksək səviyyədə öz əməli təsdiqini tapdığını isbatlayır. Ölkə vətəndaşları da əmindirlər ki, mühüm sosial irəliləyişləri təmin edən Prezident İlham Əliyevin uğurlu sosial siyasəti qarşıdakı dövrdə də yeni-yeni nailiyyətlər qazandıracaq, insanların yaşayış səviyyəsini daha da yüksəldəcək.



## "2023-CÜ İLİN İLK AYINDA BÜTÜN NÖV ƏMƏK PENSİYA MƏBLƏĞLƏRİNDƏ ARTIMLAR OLACAQ" SOSİAL MÜAVİNƏTLƏR ARTIRILDI - FƏRMAN

Prezident İlham Əliyev sosial müavinətlərin məbləğinin artırılması və "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə fərman imzalayıb. Fərmana əsasən 2023-cü il yanvarın 1-dən sosial müavinətlərin məbləğləri aşağıdakı kimi müəyyən edilsin: Yaşa görə sosial müavinətin məbləği 220 manat; orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə sosial müavinətin məbləği 270 manat, orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə sosial müavinətin məbləği 220 manat, orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə sosial müavinətin məbləği 150 manat; ailə başçısını itirməyə görə sosial müavinətin məbləği 120 manat; bir yaşınadək uşağı olan aztəminatlı ailələrə sosial müavinətin məbləği hər uşaq üçün 100 manat; radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün sosial müavinətin məbləği 300 manat; uşağın anadan olmasına görə sosial müavinətin məbləği 500 manat; dəfn üçün sosial müavinətin məbləği 500 manat. Qanuna edilən dəyişikliyi şərh edən millət vəkili Vüqar Bayramov bildirib ki, qanunvericilik əvvəlki illərdə bütün əmək pensiyalarının indeksasiyasını nəzərdə tutmadığı üçün belə dəyişikliklərə ehtiyac var idi. Digər tərəfdən, pensiyaları indeksasiyaya cəlb olunmayan şəxslərin əməkhaqqıları isə 3-5 ildən bir artırılırdı ki, nəticədə qulluq əlavəsi alan şəxslərin pensiyasında artımlar hiss olunmurdu. Onların pensiyaları indeksasiya olunmadığı üçün bu həmin vətəndaşlarımızın bu imkandan da faydalanmasına imkan vermirdi. Yeni dəyişikliklər qəbul olunandan sonra həmin vətəndaşlarımız bu hüquqdan istifadə edə biləcəklər. Məsələn, 2001-2011-ci illərdə on illik indeksasiya faizi 98.0 faiz olub. Bu müddətdə dövlət qulluqçusunun pensiyasında 69.0, hakimlərdə 25, hərbi qulluqçularda 59, xüsusi rütbəlilərdə 81, ədliyyə işçilərində 69 faiz artım qeydə alınıb. Göründüyü kimi, əgər həmin vətəndaşlarımız da bu müddətdə vahid indeksasiya sistemindən istifadə etsəydilər pensiya məbləğlərində daha çox artım qeydə alınardı. Yeni dəyişikliklər məhz həmin vətəndaşlarımıza bu imkandan faydalanmağa şərait yaradacaq. Bu baxımdan, yeni dəyişikliklər ilə qulluq stajına görə əlavə almaq hüququ olan şəxslərin pensiyası əvvəlki metoda nisbətən indi daha çox artacaq, onların sosial rifahına müsbət təsir göstərəcək: "Qeyd edək ki, indeksasiya hər il yanvar ayında aparılır. Bu o deməkdir ki, yeni dəyişikliklər qəbul olunandan sonra 2023-cü ilin ilk ayında bütün növ əmək pensiya məbləğlərində artımlar olacaq. Bu il minimum əməkhaqqı məbləğində artım olduğu üçün orta aylıq əmək haqqında əvvəlki illərə nisbətən daha yüksək faizli artım qeydə alınacaq. Bu ilin ilk 10 ayında orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 14,5 faiz artıb. Bu, o deməkdir ki, mövcud tendensiya saxlanacağı halda gələn ilin yanvar ayında pensiyalar təxminən 15 faizə indeksasiya olunacaq. Təbii ki, daha dəqiq rəqəm 2023-cü ilin yanvar ayında elan olunacaq.

Ardı Səh. 3

# Vətəndaşların rifahı dövlət siyasətinin mərkəzində

*Prezidentin "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən Azərbaycanda minimum aylıq əməkhaqqı 345 manat müəyyən edilib*




Əvvəli Səh. 2

Digər tərəfdən, 2022-ci ildə əmək pensiyaçılarına ödənilən maddi yardımın da (200 manat və ya qulluq əlavəsi alan şəxslərə ödənilən pensiya məbləğinin 10 %-i miqdarında) 2023-cü il yanvarın 1-dən etibarən pensiyaların tərkibinə daxil edilərək indeksasiya olunması nəzərdə tutulur. Bu da pensiya məbləğlərindəki artıma müsbət təsir göstərəcək. Qeyd edək ki, xüsusi şərtlərlə pensiya alan şəxslərin aylıq pensiyalarına ödənilən 10 faiz, həmçinin digər pensiyaçılara il ərzində ödənilən 200 manat maddi yardım onların pensiyalarına daxil edildikdən sonra yekun məbləğ orta aylıq əməkhaqqının illik artım tempinə uyğun indeksləşdiriləcək. Məsələn, 400 manat pensiya və il ərzində 200 manat maddi yardım alan vətəndaşların pensiya məbləği yeni ildən 416.7 manat (400+200/12) qəbul edilərək üzərinə indeksasiya faizi qədər artımla hesablanacaq. Bu, o deməkdir ki, 400 manat pensiya alan vətəndaşımızın pensiyası gələn ay 62 manat artacaq".

## MƏQSƏDİMİZ ÖLKƏNİ GÜCLƏNDİRMƏK VƏ HƏR BİR VƏTƏNDAŞIN HƏYATINI DAHA DA YAXŞI ETMƏKDİR

Sözü ilə əməlləri üst-üstə düşən Azərbaycan Prezidenti İlham Əliyev iqtisadi və sosial sahə həmişə paralel getməlidir: "Ona görə də, hələlik, limitsiz xarici kreditlərin cəlb edilməsinə ehtiyac yoxdur. O ölkələrdə ki, ancaq iqtisadi sahəyə diqqət verilir və sosial sahə kənarda qalır, orada insanlar iqtisadi islahatlardan çox böyük əziyyət çəkirlər. Bizim isə məqsədimiz ölkəni gücləndirmək və hər bir vətəndaşın həyatını daha da yaxşı etməkdir". Dövlət başçısı müsahibəsində sosial rifah sahəsində atılan praktiki addımlardan danışarkən deyib ki, minimum əməkhaqqının 15 faiz artması inflyasiyanın fəsadlarının yumşaldılmasına hesablanıb: "Bu, bizi qane edir? Əlbəttə ki, yox. Amma biz imkan daxilində öz addımlarımızı atırıq. Çünki bir daha demək istəyirəm, bizim əsas xərclər istiqaməti Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək və ordu potensialımızı gücləndirməkdir. Bu iki əsas prioritet bizim üçün uzun illər prioritet kimi qalacaq". Dövlətimizin başçısı qeyd edib ki, pensiyaçıların sosial təminatının yaxşılaşdırılması üçün minimum pensiya da 16,7 faiz artırıldı, 280 manata çatdı və bu proses davam etdiriləcək. Bu, müntəzəm olaraq atılan addımlardır və iqtisadi imkanlarımız artdıqca, gələcəkdə də buna oxşar addımlar atılacaq. Azərbaycan Prezidenti, həmçinin ünvanlı sosial yardımın verilməsi ilə bağlı söyləyib ki, çox böyük şəffaflaşdırma işi aparılıb: "Əvvəlki dövrlərdə bu sahədə çox böyük pozuntulara yol verilmişdi. Ehtiyacı olmayan insanlara sosial yardım verilirdi və əlbəttə ki, bunun arxasında təmənna dayanırdı. Ehtiyacı olan insanların isə buna əli çatmırdı. Ona görə bu sahədə çox geniş təftiş işi aparılıb". "Bu gün 60 minə yaxın ailə dövlətdən ünvanlı sosial yardım alır və ildən-ilə bu yardımın məbləği artır. Yəni, bu il bir ailəyə düşən müavinət təqribən 460 manat səviyyəsindədir və əlbəttə ki, il ərzində artacaq, o cümlədən orta aylıq əməkhaqqı da. Biz gözləyirik ki, bu il Azərbaycanda orta aylıq əməkhaqqı 900 manatdan çox olacaq. Beləliklə, sosial sahədə bu addımları ataraq həm ehtiyacı olan insanlara arxa-dayaq oluruq, eyni zamanda, biz öz siyasətimizə sadiqliyimizi göstəririk", - deyə dövlətimizin başçısı vurğulayıb. Bir sözlə, görülən işlər bir daha onu sübut edir ki, insan amili, vətəndaşların sosial rifahının yüksəldilməsi dövlətimizin başçısının həyat amalıdır, ən başlıca vəzifə kimi qarşıya qoyulub və bu əməli fəaliyyətdə qəbul olunmuş qərar və sərəncamlarda öz əksini tapır. Prezident İlham Əliyevin imzaladığı sərəncam və fərmanlar dövlət başçısının daim vətəndaşları düşündüyünü və onların sosial rifahının yaxşılaşdırılması istiqamətində addımlar atdığını bir daha təsdiqləyir. Ümumiyyətlə, əməkhaqqlarının artırılması, pensiya və müavinətlər, əhalinin ən müxtəlif təbəqələrinin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı dövlət başçısının imzaladığı çoxsaylı fərman və sərəncamlar, həyata keçirilən sosial islahatlar dövlətin bu istiqamətdə davamlı siyasətinin məntiqi nəticəsidir. Və xalqımız sözü ilə əməli üst-üstə düşən Prezidentimizin cari ildə də bu uğurların sırası daha da genişlənəcək.

**RƏFİQƏ KAMALQIZI**




# İtaliya mediası:

## "Qarabağ bölgəsindəki faydalı qazıntı yataqları yerli ermənilər tərəfindən qanunsuz istismar olunur"




**İtaliyanın aparıcı mətbuat orqanlarından olan "l'Opinione" qəzeti azərbaycanlı ekofəalların Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda təşkil etdikləri etiraz aksiyasından yazıb.**

AZƏRTAC xəbər verir ki, ölkəmizə ezam olunan qəzetin əməkdaşı Domeniko Letisiya məqaləsində azərbaycanlı ekofəalların keçirdiyi aksiya ilə beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycanın Qarabağ bölgəsindəki faydalı qazıntı yataqlarının yerli ermənilər tərəfindən qanunsuz istismarına və ekologiyaya vurulan ziyana yönəltdiklərini qeyd edir. Bildirilir ki, Üçtərəfli Bəyanata uyğun olaraq, 2020-ci ilin noyabrında İkinci Qarabağ müharibəsindən sonra yola nəzarət üçün buraya müvəqqəti olaraq Rusiya sülhməramlıları yerləşdirilib. Ekofəallar Qarabağda ermənilərin qanunsuz istismar etdiyi faydalı qazıntı yataqlarına çıxışını pisləyir.

Yazıda siyasi ekspert, analitik Orxan Amaşovun fikirlərinə yer verilir. Azərbaycanlı analitik ərazilərimizin otuz illik işğalı dövründə Ermənistanın beynəlxalq hüquq normalarını açıq şəkildə pozaraq, Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınan Laçın rayonunda qeyri-qanuni məskunlaşma siyasətini apardığını qeyd edir.

"Biz Azərbaycanın təbii ehtiyatlarının qanunsuz istismarına etiraz edirik, ətraf mühiti qorumaq üçün mübarizə aparırıq. Biz səssiz qala bilmərik və buna göz yuma bilmərik, çünki region mühüm ekoloji irsə malikdir və qeyri-qanuni hasilatın nəticələri geri dönməz ola bilər. Ermənistan silahlı qüvvələri üçtərəfli Bəyanatın 4-cü maddəsində nəzərdə tutulduğu kimi, həmin ərazini tərk etməli idi, lakin bu, baş vermədi. Onlar nəinki ərazini tərk etməkdən imtina ediblər, həm də İsveçrədəki şirkətin cəlb edilməsi yolu ilə qeyri-qanuni mis və qızıl hasilatı ilə məşğul olublar. Ərazimizin təbii sərvətləri qeyri-qanuni olaraq, heç bir dayanıqlılığa nəzarət edilmədən və dövlət icazəsi olmadan istismar olunur. Bu qanunsuz əməllər ətraf mühitin çirklənməsinə, regionun gələcəyində ciddi fəsadlar yaradacaq problemlərə səbəb olur. Hesab edirik ki, bu vəziyyət dərhal nəzarətə götürülməli və Rusiya sülhməramlı qüvvələrinin yerləşdirildiyi coğrafi ərazidə yerli mühitin monitorinqi aparılmalıdır", - deyə O.Amaşov bildirir.

"Böyük təəssüf hissi ilə qeyd edirik ki, beynəlxalq media bizim istədiklərimizə və haqlı tələblərimizə diqqət yetirmək əvəzinə, Ermənistanın yalan məlumatlarını yayımlayır. Biz bütün mülki vasitələrin və humanitar yardımların yoldan keçməsinə şərait yaradırıq. Artıq müəyyən qələbələrimiz olub. Ehtiyatların qeyri-qanuni hasilatı ilə məşğul olan "Base Metal" mədən şirkəti ərazidəki fəaliyyətini dayandırıb. Lakin hesab edirik ki, ekoloji vəziyyətin monitorinqi regionun gələcəyini təmin etmək üçün əsas tələbdir. Ona görə də biz aksiyanı davam etdiririk", - deyə analitik qeyd edir.

Qəzetin əməkdaşı vurğulayır ki, ətraf mühitə dəymiş ziyanın həcmini müəyyənləşdirmək üçün baş verənlər izlənilməli, qiymətləndirilməli və müvafiq tədbirlər görülməlidir. Ekofəallar deyirlər ki, ətraf mühit ekspertləri və Rusiya kontingentinin yüksək komandanlığı ilə çoxsaylı görüşləri olub, lakin hələlik razılıq əldə edilməyib: "Nə baş verdiyini aydın təsəvvür etmək üçün monitorinq aparmalıyıq. Beynəlxalq ictimaiyyət artıq Oxçuçayın çirklənməsinin şahidi olub və suyun təhlili mədən işlərinin nəticəsi olan ağır metalların kütləviliyini göstərir. Laçın yolundan qeyri-qanuni hasil edilən faydalı qazıntıların daşınması üçün düzgün istifadə edilməməsi böyük iqtisadi və ekoloji problemlər yaradır. Əraziyə düzgün nəzarət edilsəydi, bölgədə ekoloji fəlakətin qarşısı alınardı. Bizim aksiyamız piyada əleyhinə minaların, sursatların, silahların və qeyri-qanuni xammalın keçidindən yayınaraq, marşrutun yalnız humanitar yüklərin daşınması üçün istifadə olunmasını təmin edir. Biz həmişə humanitar yardımların və Rusiya kontingentinin maşınlarının keçməsinə icazə vermişik. Üçtərəfli Bəyanat qüvvəyə mindikdən sonra Ermənistan dəfələrlə razılaşmaları pozaraq, Laçın yolundan qanunsuz məqsədlər üçün istifadə edib. Bu gün soyuq və şaxtalı hava şəraitində bədənimizi və mətanətimizi siyasi fəaliyyətin mərkəzinə qoyuruq və aksiyamızı dayandırmırıq. Biz öz torpağımızın, ətraf mühitimizin məhvinə yol verə bilmərik. Əgər uğursuz olsaq, gələcək nəsillər regionun və ətraf mühitin sərvətlərindən istifadə edə bilməyəcəklər. Biz dünyadakı bütün vətəndaşlardan ətraf mühitimizi və torpağımızı qorumaq üçün burada olduğumuzu və heç bir başqa ərazini işğal etmədiyimizi və ya vətəndaşı qətlə yetirmədiyimizi anlamalarını xahiş edirik. Bir daha deyirəm ki, Laçın yolu Azərbaycanın ərazisidir və bizim müvafiq qurumlarımız ona nəzarət etmək imkanına malik olmalıdır".

# Azərbaycan dünya birliyi üçün etibarlı tərəfdaşdır

## Prezident İlham Əliyev Davosda bir sıra mühüm görüşlər keçirib







**Azərbaycan Prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına səfəri başlayıb. Yanvarın 17-də Davosda dövlətimizin başçısı Niderlandın ”Damen Shipyards Group” şirkətinin icraçı direktoru və səhmdarı Arnout Damen ilə görüşüb.**

Söhbət zamanı dövlətimizin başçısının Arnout Damen ilə əvvəlki görüşü xatırlandı. Arnout Damen Azərbaycanda layihələrin həyata keçirilməsinə başladıqlarını bildirdi və görülən işlərdən danışdı. Prezident İlham Əliyev ”Damen Shipyards Group” şirkətinin bu yaxınlarda Azərbaycanda layihələri artıq həyata keçirməyə başlamasından məmnunluğunu bildirdi. Görüşdə Azərbaycanda bu şirkətin daha geniş həcmdə işlər görməsi üçün yaxşı imkanların olduğu vurğulandı.

Dövlətimizin başçısı Azərbaycanın önəmli tranzit ölkəyə çevrildiyini qeyd edərək, respublikamızın ərazisindən keçən yüklərin həcminin 75 faiz artdığını vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, bütün bunlar nəzərə alınaraq, Azərbaycanda yeni tankerlərin, quru yük gəmilərinin və bərələrin sayının artırılmasına ehtiyac var. Bu sahədə də ”Damen Shipyards Group” şirkəti ilə əməkdaşlıq üçün yaxşı potensial mövcuddur. Görüşdə, həmçinin Azərbaycanın Hərbi Dəniz Qüvvələri üçün də müxtəlif gəmilərin istehsalının mümkünlüyü məsələləri müzakirə edildi.

Dünən həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 17-də Davosda ”CISCO” şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrix ilə görüşü olub. Görüşdə Azərbaycan ilə ”CISCO” şirkəti arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. Qay Didrix Azərbaycanda bir məktəbdə rəqəmsallaşdırma layihəsini həyata keçirdiklərini dedi. Söhbət zamanı bu layihənin ölkəmizdə yüzlərlə məktəbi əhatə etməsinin planlaşdırıldığı vurğulandı.

Prezident İlham Əliyev Zəngilan rayonunda ”Ağıllı şəhər” və ”Ağıllı kənd” layihələrinin uğurla icra olunduğunu qeyd etdi, bu işlərin işğaldan azad olunmuş digər ərazilərdə də həyata keçirilməsinin planlaşdırıldığını vurğuladı. Dövlətimizin başçısı ”CISCO” şirkəti tərəfindən hazırlanan ”Azərbaycanın ağıllı şəhər strukturu barədə məruzə”yə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Azərbaycanda su resurslarından istifadə olunmasında ”CISCO” şirkətinin texnologiyalarının tətbiqi məsələlərindən danışıldı, təhsil və kibertəhlükəsizlik sahələrində əməkdaşlığın perspektivləri müzakirə edildi.

Azərbaycan Prezidenti İlham Əliyevin Davosda ”Fortesque Future Industries” şirkətinin sədri Endrü Forest ilə də görüşü olub. Görüşdə Azərbaycanın Energetika Nazirliyi ilə ”Fortesque Future Industries” şirkəti arasında ötən ay imzalanan memorandumda ölkəmizdə 12 min meqavat gücündə külək və günəş enerjisinin istehsalına dair layihənin icrasının nəzərdə tutulduğu bildirildi. Eyni zamanda, Buxarestdə ”Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in imzalanmasının da önəmi vurğulandı. Azərbaycanda istehsal edilən yaşıl enerjinin bu layihə vasitəsilə gələcəkdə Avropa bazarına çatdırılmasının əhəmiyyəti qeyd olundu.

Söhbət zamanı Azərbaycanda hidrogen, o cümlədən yaşıl hidrogen istehsalına dair layihənin icrasında da əməkdaşlığın həyata keçirilməsinin əhəmiyyəti vurğulandı. Söhbət zamanı Azərbaycanda əlverişli investisiya mühitinin olduğu vurğulandı. Görüşdə ölkəmizin bərpaolunan zəngin enerji potensialına malik olduğu qeyd edildi, əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Almaniyalı alimdən ”Spiegel”ə məktub: ”İrəvanda 1918-ci ilədək erməni hökmdarlığı olmayıb”



**Almaniya mediasında Azərbaycana qarşı yayımlanan audioreportaja (podkast) layiqli cavab verilib. Belə ki, son illər aparılmış məqsədyönlü fəaliyyət nəticəsində ölkəmizə dost münasibət bəsləyən və Azərbaycanla bağlı mükəmməl tarixi biliklərə sahib əcnəbi alimlərdən biri olan almaniyalı tədqiqatçı Dr.Mixael Reynhard Hess ölkəmiz əleyhinə böhtanlarla dolu reportajı əsaslandırılmış faktlarla darmadağın edib.**

Qeyd edək ki, Almaniyanın ”Spiegel” jurnalının beynəlxalq mövzularda yayımlanan ”8 milyard” başlıqlı audioreportajları sırasında aparıcı Olaf Heuser yanvarın 14-də növbəti podkastını Azərbaycan-Ermənistan münasibətlərinə həsr edib (https://www.spiegel.de/thema/podcast-acht-milliarden/). ”Dağlıq Qarabağın blokadasının Rusiya müharibəsi ilə nə əlaqəsi var?” başlıqlı audioreportajda Ermənistan və Azərbaycan arasındakı keçmiş münaqişənin tarixi və hazırkı vəziyyəti, o cümlədən azərbaycanlı ekofəalların Laçın dəhlizi ətrafındakı etiraz aksiyası, Azərbaycanın siyasi rəhbərliyi tərəfindən irəli sürülən Qərbi Azərbaycan konsepsiyası məsələləri əks olunub. Otuz üç dəqiqəlik podkast tamamilə təhrif olunmuş və yalnız erməni mövqeyindən hazırlanıb, bir İrəvan sakini və Anna Aridcanyan adlı bir erməni jurnalistdən isə ”zamin qismində” müsahibə alınıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, almaniyalı alim, ”Şuşanın irsi” kitabının müəllifi Dr.Mixael Reynhard Hess təhriflərlə dolu və qeyri-peşəkar hazırlanmış reportajla bağlı ”Spiegel”in redaksiyasına genişhəcmli, etiraz məzmunlu oxucu məktubu göndərib.

Dr.Hess oxucu məktubunda Qarabağın ”Spiegel” jurnalı tərəfindən səhvən ”eksklav” kimi təqdim olunması ilə bağlı 44 günlük müharibə dövründən bəri dəfələrlə etiraz məktubları göndərdiyini vurğulayıb. Onun fikrincə, audioreportajın əsas məğzi ermənilərin yalnız qurban kimi, azərbaycanlıların isə əksinə - avtokrat və cinayətkar kimi təqdim edilməsi olub. Bütün veriliş ərzində Dağlıq Qarabağ dedikdə, yalnız orda yaşayan ermənilər nəzərdə tutulur, bu regionun 1990-cı illərdə Ermənistan tərəfindən işğal olunmasına qədər ”Dağlıq Qarabağ Muxtar Vilayəti”ndə 40 min azərbaycanlının yaşaması, ümumiyyətlə, dilə gətirilmir. Ermənistan təcavüzünün qurbanı olan azərbaycanlılar Heuser tərəfindən ”əhəmiyyətsiz məsələ”, ”ikinci dərəcəli qurban” kimi bir dəfə belə olsun, xatırlanmır.

M.Hess qeyd edib ki, audioreportaj 100 faiz Azərbaycansız Qarabağ təqdim etməklə tam olaraq Ermənistanın etnik təmizləmə siyasəti mənasında yayımlanıb. Bununla aparıcı Heuser Ermənistanın 1990-cı illərdə həyata keçirdiyi müharibə cinayətini dolayısı ilə legitimləşdirmiş olub. Dr.Hess Qarabağın ”Arsax” kimi təqdim edilməsinə də məhz erməni elmi mənbələrindən sitat gətirməklə münasibət bildirərək, bu sözün son 1000 il ərzində, XI əsrdən 1990-cı illərin əvvəllərinə kimi administrativ-hüquqi termin kimi işlənmədiyini faktlarla sübut edib. Qarabağın tarixi ilə bağlı bir neçə kitabın müəllifi Hess Olaf Heuseri ”Ermənistanı tarixi mifologiyasını tarixi reallıqla dəyişik salmaqda” ittiham edib.

Heuser reportaj boyu erməni əsilli jurnalist həmkarı Anna Aridcanyana etiraz etmədən tam şərait yaradıb ki, bugünkü Ermənistan dövlətinin Azərbaycan tərəfindən Qərbi Azərbaycan kimi təqdim edilməsinə istehzalı münasibət bildirsin. Dr.Hess Səfəvilər dövlətinin tarixinə (1501-1736) ekskurs etməklə, o dövrdə İrəvan bəylərbəyliyinin mövcud olduğunu və orada yaşayanların əksəriyyətinin Azərbaycan dilli müsəlmanlardan ibarət olduğunu vurğulayır, XVIII əsrdə İrəvan xanlığının mövcudluğunu və onun 1828-ci ildə Rusiya tərəfindən ləğv olunduğunu fakt kimi təqdim edərək yazır: ”İrəvan/Yerevan şəhərinin ermənilərin Ararat Respublikasının idarəçiliyinə keçməsi tarixdə ilk dəfə 1918-ci il mayın 28-də baş verib. Hətta bu məsələnin tarixi və hüquqi legitimliyi Azərbaycan tərəfindən şübhə altına alınır. Bu mənada İrəvan xanlığının ərazisi və ətrafının Qərbi Azərbaycan kimi təqdim edilməsinin Heuser və Aridcanyan cütlüyü tərəfindən sual altına alınması absurddur. Çünki ermənilərin 1918-ci il Ararat Respublikasınadək iddia etdiyi erməni dövləti 1375-ci ildə süqut etmiş Kilikiya knyazlığıdır ki, erməni iddialarına baxmayaraq, bu dövlətin paytaxtı Türkiyədə yerləşən Sis şəhəri olub. Bütün bunlar bir daha sübut edir ki, İrəvanda heç bir erməni hökmdarlığı olmamışdır və bu ərazilərin Azərbaycanın qərb hissəsi kimi göstərilməsi daha legitimdir”.

Dr.Hess reportajda şəxslərə yönəlmiş emosionallığı qətiyyətlə pisləyərək bildirib ki, Azərbaycan Respublikasının Prezidentinə qarşı olan bu hücumlar Azərbaycanın öz ərazisini geri qaytarmaq hüququnun legitimliyini sual altına qoymaq niyyəti ilə edilib: ”Qarabağda aktual məsələ ermənilərin qovulması yox, oranı separatçılardan və işğalçılardan təmizləməkdir”. Hess yazır ki, oxşar fəaliyyətin Zelenski tərəfindən olunması sivil dünya tərəfindən alqışlanır. Maraqlıdır ki, podkast müddətində Paşinyanın adı bir dəfə də olsun, çəkilməyib, amma Aridcanyana şərait yaradılır ki, Ukrayna müharibəsi ərəfəsində Prezident Əliyevin Prezident Putinlə xoş atmosferdə görüşməsini tənqid etsin. Dr.Hess oxucu məktubunda Almaniya kansleri Olaf Şoltsun da Moskvada Putinlə oxşar görüşünü xatırladaraq bildirir ki, dövlət başçılarının görüşü diplomatiyada adi haldır. Yəni, Azərbaycan Prezidentinin əleyhinə dəqiqələrlə edilən əsassız arqumentlərin külək dolu boş polemikadan başqa bir şey olmadığı üzə çıxır.

”Spiegel” podkastının ziddiyyəti ondadır ki, başlıqda Azərbaycanı ”Dağlıq Qarabağın blokadasında” ittiham edir, reportaj boyu isə bunu rusların barrikadalar qurmaqla etdiyini bildirir. Dr.Hess oxucu məktubunun sonunda jurnalistin həm də seçdiyi veriliş formatı ilə öz imkanının sərhədlərini aşdığını tənqid edib, Almaniyanın fikir formalaşdıran jurnalistlərini lazımi bilgilərə malik olmadıqları mövzu barədə danışmamağa çağırıb.

# Dünya mediası: Azərbaycan Avropaya qaz ixracatını artırır

### Azərbaycan Prezidentinin Dayanıqlılıq Həftəsinin açılışındakı çıxışı dünyanın aparıcı KİV-ləri tərəfindən geniş işıqlandırılıb


DOSAR MEDIA

Externe / ianuarie 16

Președinții Azerbaidjanului și Emiratelor Arabe Unite s-au întâlnit la Abu Dhabi

La data de 15 ianuarie la Abu Dhabi, a avut loc o reuniune între președintele Azerbaidjanului ... președintele Emiratelor Arabe Unite, șeicul Mohamed bin Zayed ... șefului statului azer, scrie haqqin.az


رئيس الدولة يشهد افتتاح " أسبوع أبوظبي للاستدامة "


TRT HABER

İlham Aliyev: Azerbaycan'ın şimdiki hedefi yenilenebilir enerji

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, ülkesinin yaklaşık 200 gigavatlık yenilenebilir enerji potansiyeline sahip olduğunu belirterek, "Petrol ve gaz sektörüne büyük yatırımlar çektik. Şimdi hedefimiz yenilenebilir enerji. Büyük planlarımız var ve bu işleri başaracağımızdan eminim." dedi.


NOI

Алиев: "Азербайджан будет наращивать экспорт газа в Европу"

Азербайджан продолжит наращивать экспорта природного газа в Южную Европу.

Как сообщает АЗЕРТАДЖ, об этом заявил президент Азербайджана ...


العين الإخبارية

رئيس أذربيجان بقمة أبوظبي للاستدامة: باكو باتت مركزا للطاقة المتجددة


AA

İlham Aliyev: Azerbaycan'ın şimdiki hedefi yenilenebilir enerji

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev,"Petrol ve gaz sektörüne büyük yatırımlar çektik. Şimdi hedefimiz yenilenebilir enerji. Büyük planlarımız var ve bu işleri başaracağımızdan eminim." dedi.

Ruslan Rehimov | 16.01.2023

**Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında çıxışı Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.**

Belə ki, Anadolu Agentliyi, "TRT Haber" telekanalı və digər media qurumları Türkiyə ictimaiyyətini mövzu ətrafında geniş məlumatlandırıblar.

İnformasiyalarda diqqətə çatdırılır ki, Prezident İlham Əliyev çıxışında Azərbaycanın enerji siyasətinin ayrı-ayrı istiqamətləri, o cümlədən təbii qaz istehsalı və ixracatı barədə iştirakçılara müfəssəl məlumat verib. Azərbaycan Prezidenti bildirib ki, ölkəsi ümumilikdə 200 qiqavata yaxın külək enerjisi istehsal etmək imkanlarına malikdir.

Moldova KİV-ləri Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında çıxışına geniş yer ayırıb. Bu ölkənin "Noi", "DosarMedia" və digər xəbər portallarında rumın və rus dillərində dərc olunan məqalələrdə Prezident İlham Əliyevin Azərbaycanın dünya iqtisadiyyatının və enerji sahəsinin inkişafına verdiyi töhfə barədə fikirlərinə diqqət çəkilib.

Məqalələrdə dövlətimizin başçısının sitatlarına istinadla vurğulanır ki, bu gün Azərbaycan nəinki öz enerji tələbatını təmin edir, həmçinin xam neft, təbii qaz və elektrik enerjisi ixrac edir. Azərbaycan Avropaya qaz ixracatını artırır. Bu il Azərbaycanın qaz ixracatı 24 milyard kubmetrə çatacaq. Bu rəqəm artmaqda davam edəcək.

Bundan başqa, Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) işgüzar səfəri çərçivəsində Əbu-Dabi Dayanıqlılıq Həftəsinin açılış mərasimindəki çıxışı BƏƏ mətbuatı tərəfindən də geniş işıqlandırılıb.

Belə ki, bu ölkənin rəsmi WAM informasiya agentliyi Prezident İlham Əliyevin çıxışının ərəb və ingilis dillərində icmalını dərc edib. Qeyd olunub ki, Prezident İlham Əliyev Azərbaycanda bərpaolunan enerji mənbələrini öz enerji təhlükəsizliyinin təmin olunması üçün inkişaf etdirmədiklərini bildirib. O vurğulayıb ki, ölkəsinin enerji təhlükəsizliyi hələ bir neçə il əvvəl təmin edilib və bu gün Azərbaycan nəinki öz enerji tələbatını təmin edir, həmçinin xam neft, neft məhsulları, təbii qaz, neft-kimya məhsulları və elektrik enerjisi ixrac edir. Prezidentin sözlərinə görə, bərpaolunan enerji ilə bağlı proqram tamamilə fərqli gündəliyə malikdir. Birincisi, bu onunla bağlıdır ki, nəhəng potensial var. İkincisi, Azərbaycan onun sayəsində ixracını şaxələndirəcək və nəticədə iqtisadiyyatın yeni ekoloji təmiz sektoru yaranacaq.

WAM-ın icmalında, eyni zamanda, diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev "Masdar" və Azərbaycan Dövlət Neft Şirkətinin 4 qiqavatlıq külək və günəş enerjisi stansiyalarının yaradılmasına dair imzaladıqları razılaşmanın hələ qısamüddətli bir layihə olduğunu, ortamüddətli layihələr nəticəsində güclərin 10 qiqavata qədər artırılacağını söyləyib. O əlavə edib ki, bununla bağlı yol xəritəsi var və yalnız həmin layihə nəticəsində "Masdar" ilə apardılan əməkdaşlıq Azərbaycanı yaşıl enerjinin çox mühüm ixrac mənbəyinə çevirəcək. Bütövlükdə isə Azərbaycanın beynəlxalq enerji şirkətləri ilə imzaladığı anlaşma memorandumları və sazişlər 22 qiqavata qədər külək və günəş enerjisi istehsal etmək imkanı yaradacaq.

"Əl Xalic", "Əl-Ayn" portallarında dərc olunmuş məqalələrdə isə Prezident İlham Əliyevin çıxışından əsas məqamlar yer alıb. "Prezident İlham Əliyev: Azərbaycan yaşıl enerjinin mühüm ixrac mənbəyinə çevriləcək" sərlövhəli məqalədə diqqətə çatdırılıb ki, Azərbaycanın dövlət başçısı quruda 27 qiqavatlıq külək və günəş enerjisi, 2020-ci ildə Vətən müharibəsi zamanı azad edilmiş ərazilərdə 10 qiqavatlıq külək və günəş enerjisi, həmçinin Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavatlıq külək enerjisi imkanlarının mövcud olduğunu bildirib. O vurğulayıb: "Bizə kifayət qədər ixrac marşrutları lazımdır və təbii ki, bütün bu layihələr mərhələli şəkildə icra edilir".

Məqalədə, həmçinin qeyd olunub ki, Prezident İlham Əliyev Azərbaycanda investisiya mühitinin çox müsbət olduğunu, neft və qaz sektoruna böyük sərmayələr cəlb edildiyini söyləyib və hazırda hədəfin bərpaolunan enerji olduğunu vurğulayıb. Dövlət başçısı, habelə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən işlərdən də danışıb.

## "Azərbaycan tərəfindən Laçın yolunun bağlanması barədə iddialar əsassızdır"

Rusiya sülhməramlı kontingentinin yerləşdiyi Azərbaycan ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyət, o cümlədən təbii sərvətlərin istismarına və Laçın yolundan sui-istifadəyə qarşı etirazlar Azərbaycan vətəndaşlarının legitim hüququdur. Bu xüsusda, etirazçıların haqlı tələblərinin yerinə yetirilməsi zəruridir. SİA AZƏRTAC-a istinadən xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun



Bayramov rusiyalı həmkarı Sergey Lavrovla telefon danışığı zamanı söyləyib.

Nazir Ceyhun Bayramov qeyd edib ki, guya Azərbaycan tərəfindən Laçın yolunun bağlanması, Azərbaycan ərazilərində yaşayan erməni sakinlərin blokadaya alınması, humanitar böhran vəziyyətinin yaranması barədə iddialar əsassızdır. "Laçın yolundan hər gün onlarla nəqliyyat vasitəsinin, sülhməramlı kontingentin avtomobillərinin, Beynəlxalq Qızıl Xaç Komitəsinin, erməni təcili tibbi yardım maşınlarının keçməsi Ermənistan tərəfinin əsassız iddialarını təkzib edir", - deyə nazir vurğulayıb.

# “Artımlar hər bir ailənin büdcəsini xeyli gücləndirmiş olacaq”



DEPUTAT ŞƏRH ETDİ

“Bildiyimiz kimi, bu ilin yanvarın ilk günlərindən başlayaraq, Prezident İlham Əliyev atdığı addımlarla Azərbaycan xalqına, xüsusilə də həssas kateqoriyadan olan vətəndaşlara çox gözəl müjdələr verdi. Öncə möhtərəm Prezidentimizin imzaladığı ”Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər” haqqında Sərəncamla 2023-cü il üçün minimum aylıq əməkhaqqının, əmək pensiyalarının məbləğinin və yaşayış minumunun artırılması ilə təsdiq edildi. Yanvarın 13-də isə ölkə başçısı imzaladığı yeni Sərəncam və fərmanlarla şəhid ailələrinə, müharibədə, 20 yanvar hadisələri zamanı, hərbi xidmət vəzifələrini yerinə yetirərkən, Çernobıl AES- də hərbi xidmətlə əlaqədar əlilliyi müəyyən edilənlərə, Əfqanıstan müharibəsi iştirakçılarına, 1941-1945-ci il İkinci dünya müharibəsinin iştirakçılarına, hərbi tapşırıqları yerinə yetirərkən əlil olmuş və ya həyatını itirmişlərə, bir sözlə bütün həssas qrup kateqoriyalara daxil edilən vətəndaşlara verilən aylıq təqaüdə, müavinətlər artırıldı. Bununla bərabər çoxuşaqlı, daha dəqiq desək 5 və beşdən artıq uşaqları olan analara, 1 yaşadək uşağı olan aztəminatlı ailələrə, hərbiçilərin uşaqlarına, uşağın anadan olmasına görə, dəfn üçün və s. verilən müavinətlərə artım edildi. Bu sərəncam və fərmanlarla Prezident İlham Əliyev Azərbaycan vətəndaşının sosial müdafiəsinin gücləndirilməsinə və rifahının artırılmasına yönələn növbəti çox mühüm addım atdı”. Bu sözləri SİA-ya açıqlamasında deputat Məlahət İbrahimqızı deyib.

Onun sözlərinə görə, belə bir Sərəncam və fərmanların imzalanması ilk dəfə deyil, əksinə bu artıq dövlətin sosial siyasətinin davamlılıq və ənənəsidir: ”Bu mənada artıq on ildən çoxdur ki, Azərbaycan vətəndaşı hər il dövlətimizin başçısının əhalinin sosial rifahının gücləndirilməsi ilə bağlı belə bir humanist, rifahı yaxşılaşdıran sənəd qəbul edəcəyini bilir. Çünki ölkəmizdə uzun illərdir bütün sahələrdə çox əsaslı islahatlar həyata keçirilir.

Xüsusi vurğulamaq istərdim ki, 2009-cu ildən sosial sahədə həyata keçirilən islahatları inqilabi addımlar adlandırmaq olar. Həmin sosial islahatların miqyası çox geniş əhali qrupunu əhatə edir. Sonuncu Sərəncam və Fərmanlar da son beş ilin dördüncü sosial paketi hesab olunur.

Dövlət Başçımızın daim diqqətində olan Azərbaycan vətəndaşının sosial müdafiəsinin gücləndirilməsi və rifahının yüksəldilməsi də məhz Azərbaycan vətəndaşının konstitusion hüquqlarının yüksək səviyyədə təmin edilməsinə xidmət edən siyasətdir: ”Azərbaycan vətəndaşının ləyaqətli həyat tərzinin təmin edilməsi təkcə onun əməkhaqqının, təqaüdünün, pensiyasının artırılması demək deyil. Mənzil təminatı, ətraf mühitin sağlamlaşdırılması, asudə vaxtının təşkili, fiziki və mənəvi sağlamlığının qorunması və təmini, ölkənin bütün bölgələrində sosial-iqtisadi infrastruktur layihələrinin həyata keçirilməsi, şəhid və qazilərimizin mənzillə təmin edilməsi, müəyyən kateqoriyalı insanların güzəştli sosial evlərlə təmin olunması, səhiyyə xidmətinin əlçatan olması, təhsilin keyfiyyətinin artırılması - bütün bunlar kompleks şəkildə Azərbaycan vətəndaşının ləyaqətli yaşamasını təmin edən şərtlərdəndir. Bir yandan ölkə başçısı maddi-iqtisadi vəziyyətin, ailə büdcəsinin gücləndirilməsi istiqamətində çox ciddi qərarlar qəbul edir. Digər yandan Azərbaycan vətəndaşının həyat və yaşayış keyfiyyətinin yüksəldilməsinə xidmət edən digər amillər də unudulmur”.

Deputat sözlərinə belə davam edib: ”Bu günlərdə qəbul olunmuş Sərəncam və Fərmanlar nəticəsində həmçinin dövlət büdcəsindən maliyyələşən 25-dən çox müəssisələrdə çalışan işçilərin əməkhaqları, təhsilin bütün pillələrində tələbələrin, eləcə də magistrant və doktorantların, adlı təqaüdlərin fəxri adlara və elmi dətəcələrə görə verilən təqaüdləri də artırıldı. Əməkhaqlarında artım 15 faizdən başlayıb, hətta elə kateqoriyalar var ki, əməkhaqlarında 50-60 faiz artım qeydə alınıb. Bu mənada sonuncu Fərman və Sərəncamlar əvvəlkilərə nisbətən daha yüksək formada dəyərləndirilməlidir. Son günlər imzalanmış Fərman və Sərəncamlar 2 milyona yaxın vətəndaşa şamil ediləcək. Eyni zamanda, dövlət büdcəsindən 750 milyon manat vəsait həmin artımlara sərf olunacaq. Bu artımlar hər bir ailənin büdcəsini xeyli gücləndirmiş olacaq. Ölkədə iki milyon ailənin olması və Sərəncamların da 2 milyona yaxın vətəndaşı əhatə etməsi onu göstərir ki, ən azı hər ailədə biz bunun müsbət təsirini görəcəyik. Elə ailələr var ki, onlara iki-üç kateqoriyadan olan artımlar təsir edəcək.

Əminəm ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sosial rifahın gücləndirilməsi istiqamətində imzaladığı sərəncam və fərmanları bununla məhdudlaşmır və bu proses ilboyu davam edəcəkdir. Ölkə başçısı bir neçə gün əvvəl televiziya kanallarına verdiyi müsahibədə də bu siyasətin davam edəcəyini bildirib. Hətta bu müsahibədə möhtətəm Prezidentimiz xüsusi vurğuladı ki, biz bu artımlarla hələ razı deyilik və bu artıq bundan sonra daha da artırılacaq və ölkədə orta əmək haqqı 900 manata çatdırılacaqdır.

Hələ ötən il büdcə müzakirələri aparılanda ictimaiyyətə 3 milyon manata yaxın artım olduğu açıqlandı. Hər kəs bilirdi ki, həmin artım sosial sferaya daha çox yönələcək. Bu da onun nəticəsidir ki, 2023-cü il dövlət büdcəsinin təxminən 46-47 faizi məhz sosial sferaya ayrılıb.

Azərbaycan xalqı öz xoşbəxt taleyini Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin siyasətinə bağlayıb və dövlətimizin başçısının ətrafında sıx birlik nümayiş etdirir. Azərbaycan vətəndaşı əmindir ki, dövlət başçısının qlobal miqyasda apardığı uğurlu xarici siyasət kimi daxili siyasətdə də çox böyük nailiyyətlərə imza atacaq”.

***Ayşən Vəli***



## Erməni keşiş molla rejiminə təşəkkür edib: **fars-erməni qardaşlığının tərənnümü**

O, İran hökumətinin ölkədə yaşayan ermənilərə qayğıkeşliyindən ağız dolusu dəm vuraraq, ermənilərə aid kilsə və mərkəzlərə verilən dəstəyi yüksək qiymətləndirib





**Güney Azərbaycanda yaşayan ermənilərin Yeparxiyasının arxiyepiskopu Qriqor Çiftçiyan İran hökumətinə minnətdarlıq edib. O, İran hökumətinin ölkədə yaşayan ermənilərə qayğıkeşliyindən ağız dolusu dəm vuraraq, ermənilərə aid kilsə və mərkəzlərə verilən dəstəyi yüksək qiymətləndirib. Çiftçiyan İranın ərazi bütövlüyünün qorunub saxlanılmasını bütün ermənilərin böyük arzusu olduğunu qeyd edib.**

Xatırladaq ki, Çiftçiyan bir neçə gün öncə də Fransanın ”Charlie Hebdo” nəşrinin Xameneyinin İranda etirazların yatırılmasındakı rolu mövzusunda karikaturalarını dərc etməsindən narahatlığını ifadə edib. ”Bu addım ermənilərin də ürəyini yaralayıb”, deyə erməni keşişi bildirib.

Qeyd edək ki, şəkil erməni keşiş Çiftçiyanın bir müddət öncə Ərdəbilin əyalət mollası və anti-Azərbaycan mövqeyi ilə tanınan Ayətullah Həsən Ameli ilə görüşünə aiddir.

Bu kimi görüşlər tez-tez baş tutur və Tehran rejiminin ermənilərlə isti münasibətlərini əks etdirən fotolar bu gün internet şəbəkələrini ”bəzəməkdədir”.

Daha bir məqamı xatırladaq ki, Tehran rejimi Azərbaycan torpaqları Ermənistan tərəfindən işğala məruz qaldığı dövrlərdə Qarabağda dağıdılan və yer üzündən silinən dini ibadətgahlarımızla, məcsid və ziyarətgahlarımızla, müsəlman qəbirlərinin dağıdılması ilə bağlı etiraz bəyanatları səsləndirməyib. Əksinə, bu gün İranın ermənilərin kompakt yaşadıqları müxtəlif şəhərlərində qondarma erməni soyqırımına aid edilmiş abidə və xatirə kompleksləri fəaliyyət göstərir. Eləcə də Tehranda ermənilər üçün nəhəng ictimai bina istifadəyə verilib və hər il orada Azərbaycan əleyhinə tədbirlər keçirilməkdədir.

Həmçinin, bu gün İranda Azərbaycan dilində tədrisin keçirilməsi kəskin məhdudiyyətlərlə qarşı-qarşıya qalıb. Ölkə TV-nın və radiosunun Azərbaycan dilində yayımlanan verilişlərində yalnız Azərbaycan əleyhinə siyasət mexanizmi işlədilir. Bütün bunlardan sonra İranın Azərbaycanla münasibətlərində hər hansı səmimiyyətli davranış göstərməsinə sadəcə qeyri-ciddi baxmaq olar.

***Rövşən RƏSULOV***

FAKT!

**Dekabrın 24-də dövlətimizin başçısı dünya azərbaycanlılarının sevimli Prezidenti cənab İlham Əliyev yenə də adəti üzrə ad günündə bu xalqın nümayəndələri ilə bir yerdə oldu. Ad gününü Qərbi Azərbaycana həsr edən Prezident cənab İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış oldu və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdü, tarixi faktlara söykənən çoxmənalı və tarixə yazılacaq çıxış etdi. İnzibati binada çıxışı zamanı cənab Prezident İlham Əliyev dedi: ”Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir.**



# “Biz gec-tez İkinci Böyük Qayıdışın da şahidi olacağıq”

Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb”. Bəs görək Milli Məclisin deputatları Prezidentin Qərbi Azərbaycana qayıdışla bağlı fikirlərini necə dəyərləndirir? SİA mövzu ilə bağlı deputatlar arasında sorğu keçirib.

**Milli Məclisin deputatı Fəzail Ağamalı:** ”2022-ci il dekabrın 24-də cənab Prezidentin Qərbi Azərbaycan İcmasının bir qrup ziyalısı ilə görüşdə mən də iştirak etmişdim. Hələ də o görüşün təsiri altındayam. 44 günlük Zəfər müharibəsi ilə ciddi bir missiyanın başlanğıcını qoyan Prezidentimiz bununla bağlı lazım olduqca dövlətimizin qarşısında duran vəzifələrin anonsunu verir və Azərbaycan xalqını bu istiqamətdə səfərbərliyə alır. Bu baxımdan keçirilən görüşdə cənab Prezident tarixi və hüquqi qaynaqlara söykənərək Qərbi Azərbaycanın bizim tarixi torpaqlarımız olduğunu bir daha dilə gətirdi. Bu dəfə daha konkret faktlarla bunu əsaslandırdı. Eyni zamanda, zamanın qarşıya qoyduğu mühüm vəzifə kimi həmin torpaqlara qayıdışımızın zərurətə çevrildiyini xüsusi vurğuladı. Nəzərə almalıyıq ki, Prezident İlham Əliyev indiyə qədər önə çəkmiş olduğu məsələləri hər zaman reallaşdırmağı bacarıb. Yəni, onun sözü ilə əməli bir-birini tamamlayır və bu nadir keyfiyyət Prezidentimizə həm ölkə daxilində, həm də ölkə xaricində olduqca böyük nüfuz qazandırır. Öz doğum günündə tarixi torpaqlarımıza qayıdışla bağlı etdiyi çağırış çox böyük tarixi əhəmiyyət kəsb edir. Bu görüşdən sonra onun vermiş olduğu tapşırıqlarla bağlı ümumi olaraq Qərbi Azərbaycan İcması ciddi və fəal şəkildə işə başlayıb. Bununla əlaqədar ayrı-ayrı qurumlar yaradılır, görüşlər keçirilir. Başlamış olan bu proses şübhəsiz ki, davamlı şəkildə irəliləyəcək və bizim tarixi torpaqlarımıza qayıdışımızı təmin edəcəkdir. Unutmamalıyıq ki, bu, unikal bir tarixi şansdır. Bizi 200 il tarixi torpaqlarımızdan didərgin salan, soyqırımlara məruz qoyan erməni vandallarından Azərbaycan xalqının intiqamını tarixin özü alır. Bu tarixin məntiqinə söykənərək, məhz yaxın gələcəkdə doğma yurdlarımıza qayıdacaq və ulularımızın ruhunu şad edəcəyimizə inanıram. 30 il zaman kəsiyində erməni işğalı altında olan Qarabağ və Şərqi Zəngəzur məsələsində olduğu kimi, Qərbi Azərbaycana qayıdış məsələsində də bütün xalq bir yerdə olmalı, milli həmrəylik nümayiş etdirməli tarixi borcumuzu yerinə yetirməliyik”.



**Milli Məclisin deputatı Naqif Həmzəyev:** ”Ötən il dekabrın 24-də cənab Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının nümayəndələri ilə görüşündə səsləndirdiyi fikirlər və Qərbi Azərbaycana qayıdış konsepsiyasının hazırlanması onu deməyə imkan verir ki, biz yaxın gələcəkdə öz dədə-baba torpaqlarımıza qayıdaq. Bu konsepsiya, ilk növbədə, sülh və beynəlxalq hüquq çərçivəsində həyata keçirilməlidir. Bu baxımdan, biz gec-tez İkinci Böyük Qayıdışın da şahidi ola biləcəyik. Keçmiş məcburi köçkünlərimiz öz yurdlarına qayıtdıqdan sonra, bəlkə buna paralel olaraq Qərbi Azərbaycandan olan qaçqınların da öz torpaqlarına qayıtmasını da müşahidə edəcəyik. Bu, müxtəlif formalarda həyata keçirilə bilər. Ancaq istənilən halda Qərbi Azərbaycanlıların tam haqqıdır ki, öz yurd-yuvalarına qayıtsınlar. Ümid edirəm ki, o günləri görmək bizə nəsib olacaqdır. Əgər cənab Prezident bu layihəni yerləşdirmək istəyirsə, deməli, bu, baş tutacaq. Çünki İlham Əliyev Prezident seçildiyi gündən bu günədək verdiyi bütün vədləri reallaşdırıb. Azərbaycan xalqı ona inanır. Yalnız Qərbi Azərbaycanlıları deyil, bütün azərbaycanlıları bu konsepsiyanın hazırlanması və həyata keçirilməsi ilə bağlı həmrəy olmağa çağırıram. Belə olacağı təqdirdə, Qarabağa və Şərqi Zəngəzura qayıtdığımız kimi, bütün tarixi torpaqlarımıza qayıdacağıq”.



**Milli Məclisin deputatı Sahib Alıyev:** ”Müzəffər Ali Baş Komandanımızın Qərbi Azərbaycana qayıdışla bağlı tarixi çıxışı bütün soydaşlarımız, ilk növbədə də, kökü o torpaqlara bağlı olan biri kimi, təbii ki, mənim də içimi titrətdi. Fikrimcə, Qərbi Azərbaycana qayıdış məsələsi təkcə kökü oradan olanların yurd yerlərinə qovuşması demək deyil. Bu, indiki dönəmdə millətin toparlanması, bütün çağırışlara hazır vəziyyətdə olması üçün ideoloji platformadır.



Artıq bu məsələ parlament diplomatiyası çərçivəsində beynəlxalq müstəviyə də çıxarılıb. Milli Məclisin sədri Sahibə Qafarovanın Asiya Parlament Assambleyasının 13-cü plenar sessiyasında Qərbi Azərbaycandan danışması, İrəvanın Ermənistana verilməsi, Zəngəzurun qanunsuz olaraq ölkəmizdən qoparılması, soydaşlarımızın deportasiyası faktlarına toxunması o deməkdir ki, Prezident İlham Əliyevin ötən il dekabrın 24-dəki tapşırıqları reallaşdırılır. Qərbi Azərbaycan məsələsi beynəlxalq platformalarda qaldırılır, oradan qaçqın düşən azərbaycanlıların öz yurd yerlərinə dönmələri üçün hüquqi baza formalaşdırılır.

Bir sözlə, kökləri Qərbi Azərbaycandan olanların geri dönmələrinə Müzəffər Ali Baş Komandanımızın vurğuladığı kimi elə də çox qalmayıb və Vətənə dönüş hüquqlarını (right to homeland) heç kim onların əllərindən almayıb, ala da bilməz”.

**Milli Məclisin deputatı Ramil Həsən:** ”İnancımız o istiqamətdədir ki, cənab Prezidentin də vermiş olduğu vaxta uyğun olaraq bütün proseslər Azərbaycanın xeyrinə işləməkdədir. Prezidentin də qeyd etdiyi kimi, Azərbaycan utopik xülyalar içərisində deyil, reallığa əsaslanan bir siyasət yürüdür. Qərbi Azərbaycana qayıdış hər bir azərbaycanlının qəlbində taxt qurmuş bir düşüncədir. Düşünürəm ki, İlham Əliyevin mesajından sonra biz hər birimiz Qərbi Azərbaycanlı olmalıyıq. Necə ki, Qarabağ savaşında torpaqlarımızın erməni tapdağından azad edilməsi ilə bağlı hər kəs ”Qarabağ Azərbaycandır” deyib, fəxarətlə bu müharibəni yaşayıb, qələbə qazana bildiksə, əminəm ki, Ali Baş Komandanımızın başçılığı altında Qərbi Azərbaycana da qayıdacağıq. Haqq da, istiqamət də qərbə və qələbəyə doğrudur”.



***Ləman Əlizadə***



## Qazaxıstan hakimiyyəti ruslara “vizaran” tətbiqini qadağan edib

**Qazaxıstan hökuməti ölkəyə giriş qaydaları ilə bağlı yenilənmiş fərman dərc edib. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, sənədə əsasən, vizasız gələn immiqrantlar 180 gün ərzində Qazaxıstanda 90 gün qala bilərlər. Qazaxıstan hakimiyyəti buna görə də Rusiya vətəndaşları da daxil olmaqla, vizasız rejim olan ölkələrin vətəndaşları üçün ”visaran” praktikasını qadağan edib.**

Beləliklə, icazə verilən 90 günlük qalma müddətindən sonra əcnəbi ən azı bir gün ölkəni tərk edə, sonra isə geri qayıda bilər və bununla da qalma müddəti uzadılır.

İndi hər kəs Qazaxıstan ərazisində yalnız 90 gün qala bilər. Sonra eyni üç aya ölkəni tərk etməlisiniz. Bu qayda Avrasiya İqtisadi Birliyi ölkələrinin vətəndaşlarına da aiddir. Qeyd edək ki, vizasız rejimin mövcud olduğu digər ölkələrin əcnəbiləri üçün məhdudiyyət daha da sərtdir. Belə ki, onlara ölkədə yalnız 30 gün qalmağa icazə verilir.

***Ağasəf Babayev***

ARAŞDIRMA

# 20 yanvar 1990-cı il:

# bir qərinənin o başı və bu başı

33 il... 20 Yanvar faciəsindən ötən bir qərinəlik dövrün hər ilində bu fikirlər xatırlanır: nə faciələr yaşayıb bu xalq. Daha doğrusu, nə faciələr yaşadılıb bu xalqa. Birinin bitdiyi, yaralarımızın qaysaq bağladığı anda yenisi hazırlanıb, yaşadılıb. Səbəb? Səbəb bir neçədir. Birincisi, xalqın qüruru, mübarizliyi, əyilməzliyi. Tarixin bütün dönəmlərində haqqını, hüququnu bilən xalqlar daim incidilib. İkincisi, yaranışdan tale payımız olan, qismətimizə düşən gözəl, bərəkətli torpaqlara sahib olmağımız. Buna çoxları göz dikib, tamah salıb. Üçüncüsü isə taleyimizin nisgilli tərəfi - erməni adlı bədxah, azğın, tamahkar qonşumuzun olması. Buna, əslində, qonşu da demək olmaz. Çünki biz binə olanda bu adda qonşumuz olmayıb. Sonradan torpaqlarımızın bir küncünə qısılıb "qonşu" olublar bizə.




## Qərinənin o başı

Tarixin bütün dönəmlərində bu üç amildən doğan və zaman-zaman bir-birini əvəzləyən faciələrin növbətisi 1990-cı ilin 20 yanvarında Bakıda törədildi. Çox yazılıb bu barədə. Faciənin yaratdığı əsərlər qan çanağına dönüb, poeziya nümunələrindən qan süzüb, məqalələrdə, oçerklərdə, reportajlarda gənc ömürlər erkən çiçək açıb, vaxtsız solub, ataların beli bükülüb, analar ağlar qalıb. Televiziya ekranlarında, qəzet səhifələrində qərənfillər dil açıb bu faciənin dəhşətindən danışıb. Əllərin solmamış xınası, boş qalan məktəb partaları, qana boyanan tələbə biletləri, ali təhsili başa vurmaq haqqında diploma ölüm arasındakı qısa zaman fasiləsi, bir də ki həmin gün doğulan atasız uşaqlar ürəklərə sevgili, ər, övlad dağı çəkib, silinməz nisgil həkk edib.





20 yanvar 1990-cı il. Müstəqil tariximizin şanlı səhifəsinə çevrilən həmin tarix əsrlərin zülmətinə bir nur saçır. Bu nurun ziyasında Azərbaycan xalqının illərlə zülmlərlə, məşəqqətlərlə üz-üzə dayanan, azadlıq, müstəqillik yolunda mübarizələrlə dolu çoxəsrlik tarixi vərəqlənir. Vərəqləndikcə də başına gətirilən müsibətlər, mübariz bir xalqın müstəqil olmaq arzusunun reallaşa bilməməsi səbəbləri açıqlanır, gözlər önündə canlanır.

1990-cı ilin azadlıq mübarizəsi bir ilin, iki ilin mübarizəsi deyildi. Əsrlərin qan yaddaşına hopmuş hisslərin yenidən coşması idi. Bir sözlə, müstəqillik arzusunun reallşması üçün növbəti bir mübarizə idi. Xalq öz soykökündən qaynaqlanan hissləri ilə yenidən azadlığa can ataraq müstəqil yaşamaq istəyirdi. Elə bu arzu ilə də minlərlə soydaşımız 33 il əvvəl Azadlıq meydanına axışırdı. Günlərlə bu meydanda azadlıq istəklərini səsləndirir, bu istəklərin ozamankı hakimiyyətə çatdırılmasını, bu istəklərin həyata keçirilməsini tələb edirdi. Və qarşıda bu meydandakı minlərlə insanı nələrin gözləyəcəyini də təxmin edirdi. Çünki tariximizdən bizə azadlıq mücadiləsində başımıza gətirilən müsibətlər gün kimi aydın idi. Lakin Azərbaycan xalqı azad yaşamağı o qədər ürəkdən arzulayırdı ki, qarşıda onu nələrin gözlədiyini çox yaxşı bilə-bilə yenə də bu yoldan dönmürdü.

70 il sovet imperiyasının əsarəti altında yaşayan Azərbaycandan təbii ki, bu imperiya əl götürmək fikrində deyildi. Çünki bu xalqın milli sərvətlərinə çox yaxşı bələd idi və onun əlindən çıxması ilə əsla razılaşmaq fikrində də deyildi. Ona görə də bu mübarizəni yerindəcə boğmaq onların qarşılarına qoyduğu yeganə məqsəd idi.

Bəli, bir tərəfdən imperiya ünsürləri, digər tərəfdən isə hələ iki il öncə ermənilərin xalqımıza qarşı başladıqları müharibə və onun hər gün neçə-neçə övladımızın həlak olması ilə davamı, ölkədəki ictimai-siyasi vəziyyət, dövlətimizin başında səriştəsiz rəhbərliyin olması Azərbaycanı olmazın çətinlikləri ilə üz-üzə qoymuşdu.

Yanvarın 19-da gecə saatlarında Azadlıq meydanına toplaşan insanların ölüm hökmünü verən, bunun üçün Azərbaycana ordu göndərən rus imperiyası nümayəndələri üçün buradakı insanların taleyi yox, onların ailələrindəki insanların nələr çəkəcəyi yox, 70 il sərvətini mənimsədikləri xalqın tarixinə özləri ilə bağlı qara sətirləri həkk edəcəkləri yox, nəyin bahasına olursa olsun, Azərbaycan adlı sərvətin əldən verilməməsi maraqlı idi. Elə bunun üçün də xalqımızı mübarizə yolundan döndərmək üçün nə bacarırdılarsa, onu da etdilər.

Lakin sinəsini güllə yağışı qarşısına sipər etməyi əvvəlcədən düşünən və buna hazır olan xalqın mübariz, coşğun hisli mərd oğul və qızları bu yoldan bircə addım belə geri çəkilmək fikrində deyildilər. Güllələr onlara tərəf tuşlandıqca, qarşıya doğru irəliləyirdilər. Bu, azadlıq uğrunda mübarizənin xalqımızın qəhrəmanlıq tarixində yeni mərhələsi idi. İllər öncə əldə olunmuş və əldən verilmiş azadlıq üçün mübarizənin son həddi idi. O günlər ya xalq bütövlükdə məhv olmalı, ya da əsrlərin arzularını gerçəkləşdirməli idi. Fikir qəti, iradə qəti, lakin xalq əliyalın idi. Həm də arxasında dayanan hakim qüvvə yox idi. Dövləti idarə edənlər düşmənə satılaraq millətin taleyini əsla düşünmək belə istəmirdilər. Buna görə də xalq meydanda tək qalmışdı, ona heç bir dəstək, kömək yox idi. Tək güc qarşıya qoyulan məqsəd idi. Bu güc və iradə ilə hər kəs şəhid olmağa razı idi, nəinki mübarizə meydanından geri çəkilməyə.

Beləliklə, 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıda qanlı qətllər törədilsə də, azadlığa gedən yolun təməli qoyuldu. Xalq öz mübarizliyi ilə düşmənə sübut etdi ki, o, var-qüvvəsi ilə azadlığa can atır və bu yolda canından keçməyə hazırdır.

## Tək Bakıdamı yaşandı faciə?

Xeyr, 1990-cı ilin yanvarı Naxçıvan Muxtar Respublikasının alınmaz qalası Sədərəyin Kərki faciəsini də tarixə yazdı, Sədərək uğrunda onlarla igidin faciəli ölümünün başlanğıc nöqtəsi oldu, neçə-neçə ömürləri yarımçıq qoydu. Kərkinin tarixi, burada törədilən hadisələrlə bağlı ümummilli liderimiz Heydər Əliyev sonralar kərkililərlə görüşü zamanı bir neçə cümlə ilə tarixi bir açıqlama vermişdir: "Kərki kəndi Azərbaycanın ən gözəl guşələrindən biridir. Amma təəssüflər olsun ki, o vaxt bu xəritəni cızanda Azərbaycana düşmən olan insanlar elə etmişlər ki, Azərbaycanın Kərki kəndi Ermənistanın içində qalmışdı. Buna baxmayaraq, Kərki həmişə yaşayırdı. Ancaq 1990-cı ildə ermənilər hücum etdilər. Yaxşı yadımdadır, onda mən hələ bura gəlməmişdim. Sonra gəldim, mənə dedilər ki, kərkililər orada möhkəm müqavimət göstərdilər. Ancaq təəssüflər olsun ki, onda ermənilərlə birlikdə sovet ordusunun hissələri sizi öz kəndinizdən çıxardılar".

Tarixə mərhum şair-publisist Vaqif Məmmədovun "Sədərəkdə yazılan gündəlik" kitabında yer alan faktlarla nəzər salaq:

13 yanvar 1990-cı il.

Dünənki plenumun gedişindən, yersiz münasibətlərdən, siyasi hadisələrin getdikcə gərginləşməsindən hiss olunur ki, Sədərək ağır təhlükə qarşısındadır Düşmən yaxın vaxtlarda Sədərək üzərinə hücum edə bilər. Buna görə də bir gün də vaxt itirmədən öz səsimizi ucaltmalı, təcili tədbirlər görməliyik... Bu məqsədlə bu gün saat 14-də direktor işlədiyim Sədərək kənd 1 saylı orta məktəbdə kənd ağsaqqallarının, ziyalıların və digər nümayəndələrin ümumi yığıncağını keçirdik. 7 saata yaxın davam edən yığıncaqda son vaxtlar baş verən hadisələr ətraflı təhlil edildi, Sədərəyə Ermənistan tərəfdən böyük təhlükə gözlənildiyi etiraf olundu. Və 40-a yaxın təklif müzakirə olunandan sonra 270 nəfərin imzası ilə müraciət qəbul olundu. Gecə saat 10-da Şərurun mərkəzi poçtundan 5 ünvana (Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinə, Naxçıvan MSSR Ali Sovetinə, Nazirlər Sovetinə, Dövlət Təhlükəsizliyi Komitəsinə və Daxili İşlər Nazirliyinə) yola saldığımız müraciətdə aşağıdakı tələblər qoyulmuşdu:



1.Sədərək əhalisinin tam təhlükəsizliyi təmin edilsin.

2. Mövcud vəziyyət nəzərə alınmaqla Sədərək kəndində İliç rayon Daxili İşlər Şöbəsinin xüsusi bölməsi yaradılsın.

3. Sədərək ərazisində yerləşib inzibati cəhətdən Ermənistan SSR-in Artaşat rayonuna tabe olan sərhəd zastavası Naxçıvan MSSR-in sərhəd qoşunlarının ixtiyarına verilsin.

4. Kərkinin blokada vəziyyəti nəzərə alınmaqla Sədərəkdən Kərkiyə Cəhənnəmdərə istiqamətindən qısa vaxtda yol çəkilməsi üçün tədbirlər görülsün.

15 yanvar 1990-cı il. Müraciətdən 2 gün sonra yanvarın 15-də ermənilər Kərkiyə hücum etdilər  Səhər məktəbdə birinci dərs başlanana qədər Kərkiyə ermənilərin hücum etməsi xəbəri bütün kəndə yayılmışdı. Kərkidən sonra Sədərəyə də ermənilər tərəfdən hücum oluna biləcəyi gözlənildiyindən hamı narahatdır.

Kərkidə axşama qədər atışma getsə də, saysız daşnak xəyanətkarı qarşısında 20-25 nəfərin dözməsi mümkün olmadı. Müdafiəçilər çox inad etsələr də, rus hərbçiləri: "Daha sizin təhlükəsizliyinizi qorumağa bizim gücümüz çatmır, təcili kəndi tərk etməlisiniz, hamınızı girov götürəcəklər", - deyəndən sonra kəndin son müdafiəçiləri axşamüstü bütün cığırları qarla örtülmüş Cəhənnəmdərə-Qaraağac yolu ilə çox çətin vəziyyətdə özlərini Sədərəyə çatdıra bildilər. Qədim Oğuz yurdu olan Kərki rus hərbçilərinin əli ilə ermənilərə beləcə ərməğan edildi.

19 yanvar 1990-cı il. Səhər saat 11 radələrində məktəbdə gözlənilməz, o vaxta kimi bizə tanış olmayan bir səs eşitdik. Az sonra həmin səs təkrar olunanda hamı məktəbin həyətində idi. Arazdəyən tərəfdən ermənilər Sədərəyi aramsız top atəşinə tutmuşdular. Kinolarda gördüyümüz müharibə qoxusunu və qorxusunu hiss etdik  Bizi - məktəb kollektivini ən çox narahat edən odur ki, məktəbdə 1000 nəfərdən artıq uşaq var, kəndə də aramsız top mərmiləri yağır.

Çox möhkəm qar yağmasına, bərk şaxta olmasına baxmayaraq, Naxçıvanın bütün rayon və kəndlərindən - Şərurdan,?Ordubaddan, Culfadan, Nehrəmdən, Şahbuzdan, bütün bölgələrdən bu xəbəri eşidənlər Sədərəyin köməyinə gəlirdilər. Vəziyyət çox gərgin olduğu üçün qadınlar, qocalar, uşaqlar kənddən çıxarılır, əsasən, Şərura, bəziləri isə muxtar respublikanın digər kəndlərinə daşınırlar. Sədərəkdə kişilərin əksəriyyəti səngərlərdə, döyüşdə olduğundan çıxarılmalı əhali, əsasən, rayon rəhbərliyi tərəfindən ayrılmış avtobuslarla, bir də Sədərəyin köməyinə şəxsi maşınları ilə gələnlərin vasitəsilə həyata keçirilir.

Bu gün (yanvarın 19-da) axşam qaranlıq düşənə qədər sərhəddə döyüşlər getdi. Ermənistan tərəfdən kəndə mərmilər yağdırıldı. Xeyli insan yaralandı, 8 nəfər şəhid oldu. Onlar arasında balaca Malik və Elvin qardaşları da var.

20 yanvar 1990-cı il. Kənddə hamı təşviş içindədir. Dünənki faciə və yuxusuz gözlərin baxışları dəhşətlidir. Dünən kəndə qarşı törədilən erməni vəhşiliyi nəticəsində bizimkilərdən 8 nəfər həlak olub. Səhər saat 11 radələrində bir qara xəbər də aldıq. Guya fövqəladə vəziyyət yaratmaq adı ilə gecə Bakıya hərbi qüvvələr girib, həmin qüvvələrin qarşısına çıxan dinc əhali atəşə tutulub, yüzlərlə adam faciəli surətdə həlak olub. Azərbaycan faciəli, qara günlərini yaşayır".

Sədərəkdə yazılan gündəlik beləcə bir neçə il davam edir. Bu faktları sadalamaqda



məqsədim var. Tarixçi-alimlər haqlı olaraq qeyd edirlər ki, heç şübhəsiz, 1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri muxtar respublikanın ermənilərlə həmsərhəd olan rayonlarında, xüsusilə də Sədərəkdə və Dağlıq Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Çünki Azərbaycan həmin dövrdə qonşu Ermənistanın təcavüzünə də məruz qalmışdı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantları da daxil edilmişdi.

## Nə üçün həm Bakı, həm də Naxçıvan?

20 Yanvar... Nə üçün həm Bakı, həm də Naxçıvan? Bir ayın iki böyük təcavüzkar hadisəsinə tarixçi-alim, dosent Elçin Zamanov belə açıqlama gətirir: - Hadisələri geosiyasi kontekstdə incələyərkən Bakıya qoşunun məhz yanvarın 19-20-də yeridilməsi ilə Naxçıvana eyni vaxtda Ermənistanın işğalçı qüvvələrinin hücumunun üst-üstə düşməsi Moskvada əvvəlcədən hazırlanmış bir planın həyata keçirilməsini gün kimi açığa çıxarır. Bir anlıq tarixə nəzər salsaq, bolşevik Rusiyasının Bakını işğal etmək üçün erməni amilindən yararlanması faktının şahidi olarıq.

1920-ci il martın əvvəllərində işğalçı XI Qızıl ordunun Bakıya maneəsiz soxulması üçün Moskva Qarabağda erməni üsyanı təşkil etdi ki, Azərbaycan hökuməti Milli Ordunun əsas heyətini oraya dislokasiya etməyə məcbur olsun. Ermənilərlə birgə hazırlanan bu təhlükəli əməliyyat planı Azərbaycanın işğalı ilə nəticələndi.

Elçin Zamanovun sözlərinə görə, Moskvanın 20 Yanvar əməliyyatı da təkrar olunan mənfur tarixin yenidən reallaşması idi. Moskva Azərbaycanda yeni bir milli dövlətin qurulmasından çox qorxurdu, çünki bu, nəticədə, bütünlüklə Cənubi Qafqazın itirilməsi və Türküstana yolun Rusiyanın üzünə bağlanması demək idi. Milliyyətçiliyin və milli şüurun qüvvətlənməsi müstəvisində Azərbaycanda milli müqavimət hərəkatının müdafiə gücünü qıra bilməyəcəyindən qorxan Moskva həmin dövrdə ermənilərin bütün qüvvələrinin ən strateji bölgə olan Naxçıvana yönləndirilməsini təşkil etdi. Həm də mərkəzdə düşünürdülər ki, Azərbaycanda suveren milli dövlət quruculuğu ideyası ətrafında yaranan milli birliyə dəstək ruhu Türk qapısı olan Naxçıvandan gəlir və buna görə də Azərbaycanın mübariz qüvvələrinin əsas diqqətini Bakıdan yayındırmaq üçün Naxçıvana çox qüvvətli erməni hücumu təşkil edilmişdi.

## Mühüm faktor: Ümummilli Lider Heydər Əliyevin Naxçıvana qayıda bilməsi məsələsi

Tarixçi-alim onu da qeyd edir ki, Moskvanı narahat edən ən mühüm faktor ulu öndər Heydər Əliyevin Naxçıvana qayıda biləcəyi və özünün mühüm tarixi liderlik missi-



yasını yerinə yetirəcəyi məsələsi idi. Buna görə də Naxçıvanın işğalı planlaşdırılırdı. Bu işğal Azərbaycan milli şüuruna 20 Yanvar faciəsindən də dəhşətli bir zərbə olacaqdı. Eyni zamanda həm də Türkiyə ilə Azərbaycanın, həmçinin böyük Türk dünyasının ən mühüm geostrateji əlaqə qovşağına çox ciddi bir tarixi zərbə endirəcəkdi. Ümummilli liderimizin həmin taleyüklü zamanda Naxçıvana dönüşü həm Moskvanın, həm də ermənilərin böyük planlarını pozmuş oldu.

Bəli, o zaman yalnız ümummilli liderimiz Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, siyasi iradə nümayiş etdirərək Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlib, SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etdi. Bundan sonra böyük şəxsiyyətin Naxçıvana gəlişi isə mərkəzin Bakı planını da, Naxçıvan planını da alt-üst etdi. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin yanvar ayında Milli Məclisdə Azərbaycan xalqına qarşı təcavüzkar 20 Yanvar hadisələrinə siyasi qiymət verildi.

Bu tarixi-siyasi faktlara nəzər saldıqca bir daha özlüyündə düşünürsən ki, 20 Yanvar faciəsindən müstəqilliyimizə bir yol uzandı. Bu yol Naxçıvandan başlandı. Ulu öndərin tövsiyələrini dinləyən xalq müstəqilliyini qazandı. 1918-ci ildəki müstəqillikdən fərqli olaraq 1991-ci ildə bərpa olunan müstəqilliyimizə ümummilli liderimizin sayəsində daimilik qarantı verildi. Bu müstəqilliklə Azərbaycan tamahında olanların bütün arzuları puç oldu, bütün planları pozuldu Müstəqilliyimizdən isə qələbəyə bir yol uzandı.

## Qərinənin bu başı

Bəli, qərinənin bu başında artıq o başdakı Azərbaycandan əsər-əlamət yoxdur. Çünki xalq çox böyük çətinliklərdən keçə-keçə yaxşı günlərin sahibinə çevrilib. Xalqın ulu öndərin ətrafında birləşməsi uğrunda canından keçməyə hazır olduğu müstəqilliyinə daimilik bəxş etdi. Ötən 33 ilin tarixi vərəqlədikcə bu səhifələrdə yeni bir Azərbaycanla, onun qurulması-yaradılması, inkişafı ilə bağlı hadisələr sıralanır. Bu səhifələrdə o zaman işğal olunmuş torpaqlarımızın bir gün geri alınması ilə bağlı ulu öndərin tövsiyələri, vəsiyyəti xüsusi yer alır.

Zaman bu missiyanı ulu öndərin özünün yerinə yetirməsinə imkan verməsə də, böyük şəxsiyyətin mənəvi və siyasi varisi Azərbaycana ötən 20 illik rəhbərliyi dövründə tarixə yaxşı atanın yaxşı oğlu imzasını ata bildi.

Hakimiyyətə gəldiyi ilk illərdən Qarabağın azad olunması siyasi liderimizin fəaliyyətinin əsasını təşkil etdi. Heydər Əliyev ideyaları istiqamətində atılan addımlar, ölkənin sosial-iqtisadi vəziyyətinin dirçəldilməsi, Milli Ordumuzun gücləndirilməsi Qarabağın geri alınması üçün əlverişli şərait yaratdı. Və biz 2020-ci ilin 27 sentyabrında başlanan və 44 gün davam edən İkinci Qarabağ Müharibəsində böyük Zəfər qazandıq. Qarabağı doğma anası Azərbaycana qaytara bildik.

Bu Zəfər qərinənin o başında-Birinci Qarabağ Müharibəsində niyə uduzduq, niyə o qədər şəhid verdik suallarına cavab oldu. İkinci Qarabağ Müharibəsində qələbəmizin səbəbini izah etdi. Nəticə etibarilə Zəfərimizin əldə olunmasında Vətən sevgisi amilinin dayandığını göstərdi. Bu Zəfərlə o illərdə ölkəmizin rəhbərlərinin sevgisizlikləri fonunda böyük Vətən sevgisini ölkəmizin rəhbərində gördük. Həm də onun sonsuz olduğunu gördük. Bu sevgi bölünüb torpaqlarımıza paylananda isə onların hər birinin azad olunması, anası Azərbaycana qaytarılması, ölkəmizin ərazi bütövlüyünün bərpasının böyük arzu olduğunu gördük. Gördük ki, ölkəmizin rəhbəri bütün gücü ordu quruculuğuna, dünyanın fikrini Qarabağa yönəltdi. Qarabağın geri alınması üçün illərlə iş apardı. Dünyaya üz tutdu, torpaqlarımızın dinc yolla, qan tökülmədən alınmasına çalışdı. Lakin buna nail olmayanda müharibə yolu ilə düşməni yerində oturtmasını, diz çökdürməsini də gördük.

Əgər Birinci Qarabağ Müharibəsində 15 mindən çox şəhidimiz olmuşdursa, İkinci Qarabağ Müharibəsində 3 minədək şəhidimiz oldu. O qədər şəhidlə əldən gedən torpaqlar geri alındı. Bu, müharibənin planlı şəkildə aparılmasının, güclü ordunun, orduya bacarıqla, səriştə ilə rəhbərliyin göstəricisi, yazılan şanlı tarixdir. O tarix ki, vərəqləndikcə hünərdən, qeyrətdən, namusdan, ləyaqətdən, vətənpərvərlikdən, həmrəylikdən söhbət açacaq.

Minlərlə şəhidi olan Birinci Qarabağ Müharibəsi isə bu tarixin səhifələrinə əliyalın insanların hünəri ilə yanaşı, həm də xalqına xəyanət edən rəhbərlərin adı, pis əməlləri ilə yazılıb. Bax, Zəfər bunları ortaya qoydu.

Bir qərinənin o başı ilə bu başındakı fərq indi göz qabağındadır. 20 Yanvar hadisəsinin baş verdiyi dövrdə həm də torpaqları işğal olunan Azərbaycan indi qalib bir ölkədir. Xalqımız bu qalib ölkənin başını dik tutan, alnıaçıq, qürurlu insanlarıdır. Bu qüruru bizə bəxş edən ölkəmizin rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyevə və Milli Ordumuzun qəhrəman oğullarına daim minnətdarıq. Çünki Qarabağ tariximizin qara ləkəsi idi. Onlar bu qara ləkəni təmizlədilər, 20 Yanvardan bu ötən bir qərinənin müəyyən zamanlarında şəhid olan övladlarımızın qisasını aldılar. Azərbaycanın adını yenidən qeyrət və qüdrətləri ilə bütün dünyaya yaydılar. Biz onlarla qürur duyuruq.

***Mətanət Məmmədova***





# Pirallahı rayonunda tədbir keçirilib



17 yanvar 2023-cü il tarixində Pirallahı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Heydər Əliyev ili" çərçivəsində "20 yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda tədbir keçirilib. SİA xəbər verir ki, tədbirdə Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov, millət vəkili, Milli Məclisin Əmək və sosial siyasət, Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvü Rauf Əliyev, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun Prezidenti Rauf Zeyni, Azərbaycan Respublikasının əməkdar jurnalisti, fəlsəfə üzrə fəlsəfə doktoru, "Səs" Media qrupunun təsisçisi və rəhbəri Bəhruz Quliyev, YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov və rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların əməkdaşları iştirak ediblər.

İlk olaraq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü naminə canından keçən bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra 20 Yanvar faciəsinə həsr olunmuş video-çarxa baxılıb.

Tədbiri giriş sözü ilə açan millət vəkili, Milli Məclisin Əmək və sosial siyasət, Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvü Rauf Əliyev qeyd edib ki, 1990-cı il yanvarın



19-dan 20-nə keçən gecə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilərək, Qarabağdakı erməni vəhşiliyinə etiraz edən və Azərbaycanın müstəqilliyi, suverenliyi naminə şüarlar səsləndirən həmvətənlərimizi, dinc əhalini ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutaraq kütləvi şəkildə qətlə yetirmişdir. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edilib. Belə ki, telestudiyanı partladaraq ölkənin tam informasiya blokadasına alınmasından sonra qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarında 131 nəfər öldürülüb, 744 nəfər yaralanıb. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olub.

Azərbaycan Respublikasının əməkdar jurnalisti, fəlsəfə üzrə fəlsəfə doktoru, "Səs" Media qrupunun təsisçisi və rəhbəri Bəhruz Quliyev çıxış edərək bildirib ki, XX əsrin 80-ci illərinin sonlarında ərazi bütövlüyümüzə, suverenliyimizə yaranan təhlükə xalqımızı coşdurdu, milli azadlıq hərəkatı inkişaf etməyə başladı. Mütəmadi etiraz mitinqləri keçirilirdi. Lakin tarixi ədalətsizliyi bərpa edib istiqlalına qovuşmaq istəyən xalqı sovet imperiyası müstəqil görmək istəmirdi. Bu məqsədlə imperiyanın xüsusi xidmət or-



qanlarının hazırladığı 20 Yanvar qırğını həyata keçirildi. Həmin gün öz konstitusiya hüquqları, ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış xalqımız sovet ordusunun zirehli tankları, tərkibində hətta ermənilərin də olduğu xüsusi təyinatlı hərbi dəstələri ilə üzləşdi. Bu dəstələr heç nəyə baxmadan dinc vətəndaşlarımızı güllələbaran etdilər, qətlə yetirdilər, tankların tırtılları altında əzdilər. Bu hadisə SSRİ rəhbərliyinin əsl mahiyyətini göstərdi.

Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun Prezidenti Rauf Zeyni öz



çıxışında bildirib ki, 20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyev övladlarıyla birlikdə Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək Azərbaycan xalqına başsağlığı verdi və bu hadisələrdə əsas günahkar kimi o zamankı respublika və SSRİ rəhbərliyini, birinci növbədə Qorbaçovu göstərdi. Bu, 20 Yanvar qırğınına verilmiş birinci siyasi qiymət idi. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il martın 29-da qəbul edilən "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərarla 20 Yanvar qırğınına dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilib. Ümumxalq Hüzn Günü elan olunması, "20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi, Şəhidlər Xiyabanında "Əbədi məşəl" kompleksinin yaradılması, 20 Yanvar şəhidlərinin ailələrinin və əlillərinin sosial müdafiəsinin gücləndirilməsi də ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov bildirib ki, 20 Yanvar faciəsi Azərbaycan xalqının tarixində və bütövlükdə XX əsrdə baş vermiş faciələr içərisində xüsusi amansızlığı ilə seçilən hadisələrdən biridir. Azərbaycan xalqı bu faciəni unutmur. Faciədən 33 il keçməsinə baxmayaraq, hər il xalqımız bu günü anır, şəhidlərin xatirəsini əziz tutur. Natiq vurğuladı ki, 20 Yanvar faciəsinin törədilməsindən bir gün sonra Moskvada Ulu Öndər Heydər Əliyev bəyanat verərək bu qətliamı kəskin şəkildə pisləyib, keçmiş SSRİ hakimiyyətini ittiham edib. Ümummilli Liderin bu bəyanatı nəticəsində dünya ölkələri Azərbaycan xalqının başına gətirilən faciədən xəbərdar oldular.

Sonda çıxış edən Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti



cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il Azərbaycan Respublikasında "Heydər Əliyev" ili elan edilib. Pirallahı Rayon İcra Hakimiyyəti tərəfindən "Heydər Əliyev" ili ilə əlaqədar 2023-cü il ərzində Tədbirlər Planına uyğun olaraq silsilə tədbirlər keçirilməsi nəzərdə tutulmuşdur. Bu gün keçirilən "20 yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılma-



sında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda keçirilən tədbirin tarixi və siyasi əhəmiyyətindən söz açan natiq qeyd etmişdir ki, Azərbaycan dövləti tərəfindən 20 Yanvar şəhidlərinin adının əbədiləşdirilməsi, onların ailələrinə qayğı göstərilməsi cənab Prezident İlham Əliyev tərəfindən daim diqqət mərkəzindədir. Biz şəhidlərimizin qanlarının yerdə qalmaması üçün müstəqilliyimizin qədrini bilməliyik. 44 günlük Vətən müharibəsi xalqın qəlbində olan Vətən sevgisinin nə qədər böyük olduğunu bir daha sübut etdi və bu müharibədə canından keçən şəhidlərimizin, Azərbaycan xalqının qan yaddaşı olan 20 Yanvar faciəsinin qurbanlarının əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

SİYASİ RAKURS+ÖZƏL

# Ermənistanın son ümidi - Fransa da əldən çıxır...

**Qalust Qriqoryan: "Fransa parlamentinin rəhbəri Yael Bron-Pive İrəvanı ziyarət etdi və Ermənistan parlamentinin spikeri Alen Simonyanla görüşdüyü zaman bir sıra yersiz, şok doğuran bəyanatlar səsləndirdi, bu madam Ermənistanda ola-ola Azərbaycanı sevindirmək qərarına gəldi"**







***Azərbaycanın Ermənistana qarşı bu və ya digər siyasi-diplomatik cəbhələrdə endirdiyi zərbələri erməni siyasi isteblişmentini sözün əsl mənasında nokaut zərbəsinə məruz qoyur və silkələyir. Maraqlıdır ki, azərbaycanlı ekofəalların Laçın yolu üzərində etiraz aksiyası keçirmələrinin davam etdiyi bir zamanda bir sıra ermənipərəst dairələr, eləcə də KİV-lər Azərbaycanın haqlı tələblərinə tamamilə fərqli don geyindirməyə səy göstərirlər. Lakin bu cəhdlərə rəğmən, həmin bəyanatlar sadəcə bəyanat olaraq qalır və heç bir halda Azərbaycanın haqlı tələblərinə təsir göstərmir. Çünki reallıq və həqiqət də məhz Azərbaycanın yanındadır.***


Leyla Abdullayeva
@LAbdullayevaMFA

Vœux au Corps diplomatique de Mme Catherine Colonna, ministre de l'Europe et des Affaires étrangères 🇫🇷.
Quai d'Orsay, 16 Janvier 2023.

Перевести твит

22:31 · 16.01.2023 · Просмотров: 1 991

## Erməni politoloquna görə, Fransa Ermənistana qarşı siyasi riyakarlıq nümayiş etdirir

Lakin bu xüsusda diqqətçəkən daha bir məqam ermənilərin daha çox ümid bəslədikləri Fransa ilə bağlıdır. Çünki ötən ilin sonlarında Fransa Senatı Azərbaycan əleyhinə qətnamə qəbul etmişdi və eyni zamanda, Fransanın deputatları, rəsmi şəxsləri, eləcə də prezidenti açıq-aşkar erməni maraqlarından çıxış edərək rəsmi Bakıya qarşı təzyiq dili ilə danışmağa cəhdlər göstərmişdilər. Fəqət bu cəhdlər də nəticəsiz qaldı. Həmin cəhdlərin nəticəsiz qalmasını isə elə erməni siyasətçilərinin öz dillərindən eşitmək daha çox maraq doğurardı.

Beləliklə, Ermənistanlı kifayət qədər tanınmış siyasi şərhçi, politoloq Qalust Qriqoryan bəyan edib ki, Fransa Ermənistana qarşı siyasi riyakarlıq nümayiş etdirib. O, bu sözlərini fransız parlamentinin spikerinin ölkəsinə etdiyi rəsmi səfəri zamanı səsləndirdiyi bəyantları ilə sübut etməyə çalışıb. SİTAT: "Fransa parlamentinin rəhbəri Yael Bron-Pive İrəvanı ziyarət etdi və Ermənistan parlamentinin spikeri Alen Simonyanla görüşdüyü zaman bir sıra yersiz, şok doğuran bəyanatlar səsləndirdi, bu madam Ermənistanda ola-ola Azərbaycanı sevindirmək qərarına gəldi".

## Hər halda fransız parlamentinin spikerinin İrəvanın ortasında erməniləri pəjmürdə edən bəyanat verməsinə respekt qiymətini vermək olar

Etiraf edək ki, əslində Azərbaycan da Fransa rəsmisindən belə bir addımı gözləmirdi və əgər Yael Bron-Pivenin yuxarıda qeyd edilən bəyanatı erməni ictimai rəyində şok doğurubsa, azərbaycanlı ictimai rəyi də müəyyən mənada təəccübləndirib. Daha dəqiq desək, erməni tərəfinin şoka düşməsi maraqlı hadisədir...

Ancaq bizlərdə belə bir atalar misalı var ki, ziyanın yarısından qayıtmaq da xeyirlidir. Görünür, Fransadakı rəsmi dairələr son zamanlar hədlərini aşdıqlarını, nə qədər ciddi nöqsanlara yol verdiklərini və siyasi-diplomatik cəhətdən yersiz davrandıqlarının fərqinə varmağa başlayıblar. Və hər halda fransız parlamentinin spikerinin İrəvanın ortasında erməniləri pəjmürdə edən bəyanat verməsinə respekt qiymətini vermək olar. Necə deyərlər, sükanı belə saxla...

Nəticədə Qalust Qriqoryan, sözün əsl mənasında, psixiki sarsıntıya məruz qalıb. Bunun isə daha bir səbəbi Yael Bron-Pivenin qondarma "artsaxı" tanımaması fikirləridir.

## Fransız spikerin "Bizim mövqeyimiz dəqiqdir, biz Qarabağın müstəqilliyini tanımırıq" ifadələri erməni siyasi isteblişmentini bir-birinə vurub

Erməni politoloqunun sözlərinə görə, Fransa parlamentinin rəhbərinin ölkəsi adından çıxış edərək qondarma "dqr"i tanımamasını rəsmi şəkildə bəyan etməsi onun siyasi riyakarlığının tərkib hissəsidir. SİTAT: "Qarabağın regionda hansı statusa malik olmasına Fransa qərar verməli deyil. Bizim mövqeyimiz dəqiqdir, biz Qarabağın müstəqilliyini tanımırıq".

Əslində, yalnız Qalust Qriqoryanın deyil, bütövlükdə Ermənistandakı siyasi dairələrin anidən Fransaya qarşı aramsız hücumlara başlamaları rəsmi Paris üçün görk olmalıdır. Yeni Paris anlamalıdır ki, onlar hər an İrəvan tərəfindən hətta təhqirlərə belə məruz qala bilərlər. Çünki erməniçilik xisləti bu istiqamətdə formalaşıb və tarixlər boyu da belə olub.



## Makronun Azərbaycanı dost ölkə adlandırması və situasiyanın Bakının xeyrinə dəyişməsi

Misal üçün, uzun illər Ermənistanı qoynunda bəsləyən, ona himayədarlıq edən Rusiyaya qarşı mövcud münasibəti də Paris açıq gözlə görməli və əsl reallığı dərk etməlidir. Bu baxımdan, elə də uzağa getməyərək adıçəkilən politoloqun daha bir fikrinə diqqət yetirək. Belə ki, erməni eksperti Fransanın prezidenti Emmanuel Makronun Azərbaycanın bu ölkəyə təyin olunmuş səfiri Leyla Abdullayevadan etimadnaməsini qəbul etdiyi zaman irəli sürdüyü fikirlərini də xatırladıb. SİTAT: "Emmanuel Makron Azərbaycan səfirindən etimadnaməni qəbul edərkən bəyan edib ki, Fransa Azərbaycana dost ölkədir. Bütün bunlar onu göstərir ki, situasiya Bakının xeyrinə dəyişir".

Beləliklə, hər şey tam çılpaqlığı ilə ortadadır və yeri gəlmişkən, ötən gün Azərbaycanın Fransaya təyin olunmuş səfiri Leyla Abdullayevanın paylaşdığı son tviti də çox yəqin ki, erməni siyasi isteblişmentini yerindən oynadacaq qədər təsirlidir. Səfirimiz Fransanın xarici işlər və Avropa naziri Katrin Kolonna ilə görüşüb və səmimi fotolarını özünün tvitter səhifəsində paylaşıb. Hər halda, bu eyhamlar da bəlli tərəfə yönəlib və artıq Ermənistan son ümid yeri olduğu Fransanı da asta-asta itirməkdədir. Hər halda, faktlar da ortadadır...

***Rövşən RƏSULOV***

# İrəvan Müəllimlər Seminariyasının məzunu

Azərbaycanın qədim mədəniyyətə və zəngin ədəbi irsə malik olan şəhərlərindən olan İrəvan ədəbi-estetik fikrimizin inkişafında da böyük rola malikdir. Qeyd edək ki, çar Rusiyası dövründə İrəvan ədəbi-mədəni irsinin inkişafında Firudin bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, Eynəli bəy Sultanov kimi qabaqcıl fikirli ziyalıların əvəzsiz rolu olmuşdur. Müxtəlif vaxtlarda İrəvanda olmuş səyyahlar, salnaməçilər, tədqiqatçılar İrəvan şəhərini Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi kimi təsvir etmişlər. Mənbələrdə göstərilir ki, XIX əsrin əvvəllərində İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra İrəvanın imkanlı və ziyalı elitasının xeyli bir qismi şəhəri tərk etmişdir. Tarixin müxtəlif dönəmlərində dövrünün tanınmış simaları soyqırıma və deportasiyaya məruz qalmış, dünyanın bir sıra ölkələrinə - Şimali Azərbaycan, Türkiyə, Orta Asiya, İran, Rusiya və digər ölkələrə üz tutmuşdular.









Bu gün İrəvan Müəllimlər Seminariyasının məzunlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin dövlət xadimlərindən biri, parlamentin üzvü, maarifçi Həmid bəy Xəlil ağa oğlu Şahtaxtinski haqqında söhbət açacağıq. Kimdir Həmid bəy Şahtaxtinski? O, 1880-ci il martın 12-də Naxçıvan qəzasının Şahtaxtı kəndində anadan olmuş və ilk təhsilini mollaxanada almış, üçüncü dərəcəli şəhər məktəbində oxumuşdur. 1899-cu il iyunun 5-də İrəvan müəllimlər seminariyasının tam kursunu bitirərək 379 nömrəli attestat almışdır. O, 1899-cu il sentyabrın 1-də İrəvan rustatar məktəbinə müəllim təyin edilmişdir. Qafqaz tədris dairəsi Təhsil idarəsinin (Popeçitel) 27 oktyabr 1901-ci il tarixli təklifi ilə Həmid bəy Şaxtaxtinskiyə İrəvan Müəllimlər Seminariyasında türk dili dərslərini tədris etməsinə icazə verilmiş, təhsil idarəsinin 9 aprel 1902-ci il təklifi ilə o, tutduğu vəzifəyə təsdiq olunmuşdur. İrəvan müəllimlər seminariyasında 5 ildən artıq bir müddətdə pedaqoji fəaliyyət göstərdikdən sonra 1907-ci il oktyabrın 23-də öz xahişi ilə vəzifəsindən azad edilmişdir.

## PEDAQOJİ FƏALİYYƏTİ

Təhsilini davam etdirmək məqsədi ilə 1907-ci ildə Odessa Universitetinin hüquq fakültəsinə daxil olan H.Şahtaxtinski ikinci kursda oxuyarkən xəstələnib Bakıya qayıdır. O, bir il burada qalaraq Bakı Alekseyevsk Ali Hazırlıq məktəbində müəllim işləyir və bir il sonra yenidən Odessaya gedib təhsilini davam etdirir. 1912-ci ildə universiteti bitirir və 1913-cü il mayın 30-da ikinci dərəcəli diploma layiq görülür. Onunla bağlı olan mənbələrdə qeyd olunur ki, H.Şahtaxtinski ali təhsilini başa vurduqdan sonra Bakıya - burada yaşayan ailəsinin yanına qayıtdıqdan sonra 1913-cü ildən Bakı quberniyası Xalq məktəbləri direktorunun icazəsi ilə müəllimləri hazırlamaq üçün şəxsi kurslar açır və eyni zamanda, əvvəl Ramanada, sonra isə 1916-cı ilə qədər Alekseyevsk peşə məktəbində müəllim olaraq çalışır. H.Şahtaxtinski 1916-cı ilin əvvəlində Qafqaz Təhsil dairəsi müdiri Rudolfun əmri ilə Yelizavetpol şəhərindəki Yelizavetpol Müəllimlər Seminariyasına riyaziyyat müəllimi təyin olunaraq, bir il sonra isə keçmiş Yelizavetpol quberniyasının Qazax və Nuxa qəzaları üzrə Xalq məktəblərinin təlimatçısı işləyir.

## AXC QURUCULARINDAN BİRİ KİMİ TARİXƏ İMZASINI ATIR

O, Fevral inqilabından (1917) sonra siyasi fəaliyyətə başlayır. 1917-ci ildən "İttihad" partiyasının üzvü olur. 1917-ci ildə Rusiyada baş verən inqilabından sonra H.Şahtaxtinski Tiflisdə keçirilən Müəllimlər Qurultayında Müvəqqəti Zaqafqaziya Hökuməti tərəfindən Qafqaz Təhsil dairəsi komissarlığının üzvlüyünə seçilir. H. Şahtaxtinski 1918-ci ildə Zaqafqaziya Seymi formalaşdıqdan sonra Zaqafqaziya Hökumətinin Xalq Təhsil naziri vəzifəsində çalışır. 1919-cu ilin iyul ayından rəsmi olaraq İttihad Partiyasının üzvü olur. Maraqlı bir ömür yaşayan H.Şahtaxtinski AXC qurucularından biri kimi tarixə imzasının atır. 1918-ci ildə Azərbaycan Cümhuriyyəti yaradıldıqdan sonra H.Şahtaxtinski Hökumətin Təhsil işləri üzrə səlahiyyətli nümayəndəsi kimi Qafqaz Tədris Arxivinin Gürcüstan, Azərbaycan, Ermənistan arasında bölünməsi ilə bağlı bir müddət orada qaldı. 1918-ci ilin iyunun 6-da F.X. Xoyskinin Gəncədə formalaşdırdığı ikinci Hökumət kabinetində H.Şahtaxtinski Xalq Maarifi və Dini Etiqad nazirinin (nazir N. Yusifbəyli idi) müavini oldu və 1918-ci ilin oktyabrına qədər orada qalaraq xalq müəllimlərinin təkmilləşdirilməsi üzrə kurslara rəhbərlik etdi. O, bu işləri başa çatdırdıqdan sonra 1918-ci ilin noyabrında Bakıya gəldi. 1918-ci ilin dekabrın 26-da F.X.Xoyskinin formalaşdırdığı üçüncü Hökumət kabinetində də o, Maarif və Dini Etiqad nazirinin müavini olaraq çalışır. 1919-cu ilin martın 14-də N.Yusifbəylinin yaratdığı 1-ci (sayca 4-cü) Hökumət kabinetində H.Şahtaxtinski Maarif və Dini Etiqad Nazirliyinin idarəedicisi kimi fəaliyyətə başlayır. Lakin sonradan onun Baş nazir N. Yusifbəyli ilə münasibətlərində fikir ayrılığı yarandığından özü və müavinləri vəzifələrindən istefa verirlər, 7 ay yarım işsiz qalır. 1919-cu ilin dekabrın 24-də N.Yusifbəylinin formalaşdırdığı ikinci (sayca 5-ci) Hökumət kabinetində H.Şahtaxtinski Maarif və Dini Etiqad naziri təyin olundu. O, bu vəzifəni 1920-ci ilin martın 5-nə qədər icra etdi. 1920-ci ilin martın 5-dən sonra isə bu vəzifə İttihad Partiyasının üzvü Mirzəməhəmməd Şahsuvarova tapşırılır. Qeyd edək ki, H.Şahtaxtinski Azərbaycan Cümhuriyyəti dövründə maarif sisteminin inkişafına böyük əmək sərf edir. O, Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılmasında, Bakı Dövlət Universitetinin açılışının təşkilində önəmli rol oynayır, orada müəllim, prorektor (1919-25) kimi çalışır. O, eyni zamanda Azərbaycan Cümhuriyyəti Hökumətinin tapşırığı ilə xalq təhsilinin yaxşı mütəxəssisi kimi Ali Pedaqoji İnstitutun yaradılması layihəsini tərtib etməyə başlayır, bu işi Azərbaycan sovetləşəndən sonra axıra çatdıraraq, Xalq Komissarları Sovetinin Sədri N.Nərimanova təhvil verir. Həmçinin, Bakı Xalq Maarifi şöbəsi nəzdindəki ikiillik Müəllimlər İnstitutunda və Azərbaycan Dövlət Tibb İnstitutunda (1930-1940) işləyir. H.Şahtaxtinski məktəb islahatlarının aparılması ilə bağlı müəyyən təkliflər hazırlayıb Hökumətə təqdim etmək üçün Nazirlər Şurasının qərarı ilə 1919-cu ilin avqustun 20-dən sentyabrın 1-dək Bakıda keçirilmiş Azərbaycan müəllimlərinin III Qurultayına rəhbərlik edir. Onun həmin Qurultayda geniş məruzəsi dinlənilir. Qurultayın təklifləri əsasında məktəb islahatlarının aparılması, ümumi təhsilin məzmunca milliləşdirilməsi ilə bağlı proqram, dərslik üzrə Dövlət Proqramı hazırlanması üçün 1919-cu ilin noyabrın 7-də Xalq Maarif Nazirliyi yanında H. Şahtaxtinskinin sədrliyi ilə Hökumət komissiyası yaradılır.

## REPRESSİYA İLLƏRİNİN QURBANLARINDAN BİRİ

Azərbaycanın ümumtəhsil məktəbləri üçün dərsliklərin, Azərbaycan dilində elmi terminologiyanın tərtibi üzrə komissiyaların sədri olmuş, yeni Azərbaycan əlifbasının yaradılmasında iştirak etmişdir. Belə bir ömür yaşayan Şahtaxtinski repressiyaya məruz qalır və 1941-ci ildə həbs və sürgün edilir. 1944-cü il fevralın 3-də Arxangelsk vilayətində sürgündə həlak olur. Bəli, qədim tarixi olan İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində doğulub boya-başa çatan yüzlərlə elm, mədəniyyət, incəsənət, din xadimlərinin adları Azərbaycan tarixində yer alıb. Tarixi qədim olan İrəvanda 1881-ci il noyabrın 3-də tərkibində iki sinif olmaqla İrəvan Müəllimlər Seminariyasının I sinfinin açılışının olması burada təhsilə verilən önəmin bir nümunəsidir. Birinci il seminariyaya 9 müəllim, 42 şagird cəlb edilib. 1882-ci ildə seminariyanın II sinfi, 1883-cü ildə III sinfi açılmışdır. Beləliklə, Qafqazda olan bütün müəllimlər seminariyası kimi, İrəvan Müəllimlər Seminariyası da 4 sinifdən ibarət olmuşdur. Sənədlərdə qeyd olunur ki, İrəvan Müəllimlər Seminariyasının pedaqoji kontingentinin formalaşmasında əsasən, Qori Müəllimlər Seminariyasının məzunlarından istifadə edilmişdir. Seminariyada müxtəlif fənlər tədris edilməklə yanaşı, bir sıra peşələr - xarratlıq, cildçilik işi, tərəvəzçilik və ipəkçilik fənləri də könüllü olaraq tədris olunurdu. İrəvan Müəllimlər Seminariyasının ilk buraxılışı 1884-cü ildə olmuşdur. Tanınmış simalardan Haşım bəy Vəzirov, Həmid ağa Şahtaxtinski, Tağı bəy Səfiyev, İbadulla Muğanlinski, Şamil Mahmudbəyov, Cabbar Məmmədov və başqaları İrəvan Müəllimlər Seminariyasının məzunları olmuşlar.

1918-ci ilin mayında İrəvan quberniyasının ərazisində ilk erməni dövləti - Ermənistan Respublikası qurulduqdan sonra İrəvan Müəllimlər Seminariyasının fəaliyyətinə son qoyulmuşdur. İrəvan Müəllimlər Seminariyasının direktoru V.Dobrininin 1918-ci ildə yazdığı hesabatda göstərilir ki, 1915-16-cı tədris ilində seminariyanı 19 nəfər, 1916-17-ci tədris ilində 22 nəfər, sonuncu - 1917-18-ci tədris ilində isə 23 nəfər azərbaycanlı bitirmişdir. Belə bir elm, təhsil və mədəniyyət mərkəzi olan İrəvan tarixi dövründə bir çox ziyalılar nəsli yetirmişdir. Bu nəslin yetişməsində İrəvan Müəllimlər Seminariyasının rolu müstəsnadır. 37 ilə qədər fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda İrəvan gimnaziyası və Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır.

Əzəli Azərbaycan torpaqlarındakı həmyerlilərimizin tarixi taleyinin bir parçası olan İrəvan Müəllimlər Seminariyası böyük simaların yetirilməsində əvəzsiz rol oynamışdır. İrəvanda işləyən görkəmli Azərbaycan ədəbiyyatşünası və maarif xadimi Firudin bəy Köçərlinin İrəvanı üləmalar, fazillər və şairlər şəhəri adlandırması təsadüfi deyildi. Bura həqiqətən böyük ədiblərin, mütəfəkkirlərin yetişdiyi bir məkan olaraq tariximizdə iz salıb.

***Zümrüd BAYRAMOVA***

# "Siyasi partiyalar haqqında"
## yeni qanun: uğurlu siyasi islahatların sübutu

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təməlini atmış olduğu islahatlar siyasətinin davamlı parçası olan "Siyasi partiyalar haqqında" qanunun qəbulu da bu istiqamətdə mütərəqqi, yeni addımların atılmasına və ölkəmizin daha da güclü, qüvvətli, demokratik cəmiyyətinin formalaşmasına böyük bir töhfə verəcəkdir**



*Seyfəddin Əliyev, YAP Masallı rayon təşkilatının sədri*



Ölkəmizin müasir inkişaf reallıqlarına cavab verən yeni qanunun hazırlanması zəruriliyi həm də yeni siyasi mühitin çağırışı idi. Bu baxımdan, siyasi arenada fəaliyyət göstərən bir çox siyasi partiyalar, eləcə də onların Milli Məclisdə təmsil olunan nümayəndələri "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması ilə bağlı parlamentin sədrinə müraciət etdilər. Müraciətdə ölkəmizin müasir inkişaf reallıqlarına cavab verən yeni qanunun hazırlanmasının zəruriliyi həmin müraciətdə öz əksini tapmışdır. Bütün bunlarla paralellik təşkil etməsi ilə yanaşı, Azərbaycanda bütün sahələr üzrə uğurlu siyasi islahatların həyata keçirilməsi yeni siyasi konfiqurasiyanın formalaşmasını da şərtləndirib. Bu amil siyasi münasibətlərin və dialoq mühitinin inkişafına əhəmiyyətli təsir göstərir. Belə bir şəraitdə "Siyasi partiyalar haqqında" yeni qanunun qəbul edilməsi yerində atılmış addım olaraq qiymətləndirilə bilər.

### Milli Məclisin dekabrın 16-da keçirilən iclasında "Siyasi partiyalar haqqında" qanun layihəsi üçüncü oxunuşda qəbul edildi

Qeyd edək ki, "Siyasi partiyalar haqqında" qanun 1992-ci ildə qəbul olunmuşdu və yeni qanunun qəbuluna qədər onun üzərindən 30 il keçirdi. Bu baxımdan, Azərbaycanın siyasi sistemində və bu sistemdə fəaliyyət göstərən partiyaların fəaliyyətində ciddi yeniliklərin və irəliləyişlərin qanuni qaydada həyata keçirilməsi üçün yeni qanunun qəbul edilməsi vacibliyi duyulurdu. Məhz bu mənada, siyasi partiyaların fəaliyyətinin daha yüksək səviyyədə qurulmasında, genişlənməsində həmin qanun ciddi maneələr yaradırdı. Ona görə də, müasir inkişafın spesifikası və səviyyəsi nəzərə alınaraq, bu sahədə yeni qanunun hazırlanması faktoru həm də tələbata çevrildi. Bir neçə dəfə müzakirələrdən sonra nəhayət, Milli Məclisin dekabrın 16-da keçirilən iclasında "Siyasi partiyalar haqqında" qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

### Bu, həm Milli Məclisdə təmsil olunan, həm də təmsil olunmayan siyasi partiyaların demokratik siyasi mühitdə daha rentabelli fəaliyyətlərinə yol açmış oldu

Bəli, indiyə qədər əvvəlki qanuna bir neçə dəfə dəyişikliklər edilib. Amma bu dəyişikliklər də kifayət etmirdi. Ona görə də partiya təmsilçiləri Milli Məclisdə təkliflərlə çıxış edərək, qanunun yenidən işlənməsinin vacibliyini önə çəkirdilər. Nəhayət, belə bir zaman yetişdi, Milli Məclisdə təmsil olunan siyasi partiyalar parlamentin rəhbərliyinə müraciət edərək yeni qanunun hazırlanmasının vacibliyini qeyd etdilər və aparılan müzakirələrdən sonra yeni qanun layihəsi qüvvəyə mindi. Bu, həm Milli Məclisdə təmsil olunan, həm də təmsil olunmayan siyasi partiyaların demokratik siyasi mühitdə daha rentabelli fəaliyyətlərinə yol açmış oldu.

Ümumiyyətlə, bu gün Azərbaycanda dövlət quruculuğu siyasətinin əsas hədəfi ölkədəki siyasi partiyaların hüquqi müstəvidə fəaliyyət aparmalarıdır. Son üç ildə partiyalarla kifayət qədər görüş və dialoqlar keçirilib. Yeni qanun layihəsini tərtib etməkdə əsas məqsəd bu sahədə təkmilləşdirmə işlərinin aparılması, siyasi mühitin yeni dövrün müasir çağırışlarına uyğunlaşdırılması, güclü siyasi partiyaların formalaşdırılmasıdır.

Təsadüfi deyil ki, qanun layihəsi hazırlanarkən dünyanın qabaqcıl ölkələrinin təcrübəsi öyrənilib, Azərbaycanın siyasi sisteminin və milli xüsusiyyətlərinin, bununla yanaşı, Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi haqqında tövsiyələri də nəzərə alınıb. Yenilənmiş layihədə sənədlərin toplanması ilə bağlı müddət artırılıb, partiyanın təsis edilməsi, qeydiyyatı, sənədlərin yoxlanılması ilə bağlı rəqəmlər isə azaldılıb.

Artıq əminliklə deyə bilərik ki, aktiv müzakirələr nəticəsində yeni siyasi konfiqurasiyanın yüksək səviyyədə qurulmasında əhəmiyyətli rol oynayan qanunvericilik bazası mövcuddur və siyasi partiyaların fəaliyyəti üçün daha geniş imkanlar yaradılıb. Yeni qanun layihəsi paralel olaraq Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak edən siyasi partiyalar üçün də yeni perspektivlər müəyyən edir.

### İslahatlar ölkəmizi yeni inkişaf mərhələsinə çıxarıb, Azərbaycanın dünya birliyindəki mövqeyini daha da möhkəmləndirib




Beləliklə, artıq indiki Azərbaycan 30 ilki dövrdən tamamilə fərqlidir. Hazırda ölkəmiz dünyada söz sahibinə çevrilmiş, sürətlə inkişaf edən dövlətdir və bu reallıq ölkədə həyata keçirilən islahatların növbəti təzahürüdür. İslahatlar ölkəmizi yeni inkişaf mərhələsinə çıxarıb, Azərbaycanın dünya birliyindəki mövqeyini daha da möhkəmləndirib. İndiyədək həyata keçirilən islahatlar nəticəsində bütün sahələrdə qazanılan uğurlar özünü açıq şəkildə büruzə verir.

Yeni qanunun qəbulundan sonra hər kəs bərabər şəkildə siyasi partiya yaratmaq və ya mövcud siyasi partiyaya daxil olmaq hüququna malikdir. Dövlət qeydiyyatdan keçmiş bütün siyasi partiyaların sərbəst fəaliyyətinə təminat verilir. Həmçinin dövlət siyasi partiyaların təsis edilməsi və fəaliyyətlərinin həyata keçirilməsi üçün, hüquqlarına və qanuni mənafelərinə əməl olunmasına bərabər hüquqi şərait yaradılmasına təminat verir.

### Siyasi partiyaların aldıqları üzvlük haqları, ianələr və digər əvəzsiz köçürmələr Vergi Məcəlləsinə uyğun olaraq mənfəət vergisindən azad olunur

Bundan əlavə, layihədə siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsi üçün dövlət tərəfindən maddi yardım ayrılması qaydası da müəyyənləşib. Belə ki, Milli Məclisdə təmsil olunan siyasi partiyalarla yanaşı, parlamentdən kənarda qalan partiyalara da maliyyə veriləcək. Bu, qanunun müvafiq maddələri ilə tənzimlənəcək. Qanun layihəsində siyasi partiyaların Azərbaycan Respublikasının hüdudlarından kənarda istənilən növ (hər növ maliyyə təşkilatları daxil olmaqla) hesab açması qadağandır. Siyasi partiya pul vəsaitini yalnız milli valyutada və nağdsız qaydada bank hesabına köçürmə yolu ilə qəbul edir. Yenilik isə odur ki, siyasi partiyaların aldıqları üzvlük haqları, ianələr və digər əvəzsiz köçürmələr Vergi Məcəlləsinə uyğun olaraq mənfəət vergisindən azad olunur.

### Siyasi partiyaların müxtəlif məqsədlərlə təsis edilməsi və fəaliyyəti də qanunda öz əksini tapıb

Daha bir reallıq - əsas məqamlardan biri dövlət büdcəsinin vəsaiti hesabına siyasi partiyalara maliyyə yardımı göstərilir. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət və yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin siyasi partiyaların fəaliyyətinə müdaxiləsinə yol verilmir.



Ümumiyyətlə, bu gün Azərbaycanda dövlət quruculuğu siyasətinin əsas hədəfi ölkədəki siyasi partiyaların hüquqi müstəvidə fəaliyyət aparmalarıdır. Son üç ildə partiyalarla kifayət qədər görüş və dialoqlar keçirilib. Yeni qanun layihəsini tərtib etməkdə əsas məqsəd bu sahədə təkmilləşdirmə işlərinin aparılması, siyasi mühitin yeni dövrün müasir çağırışlarına uyğunlaşdırılması, güclü siyasi partiyaların formalaşdırılmasıdır. Təsadüfi deyil ki, qanun layihəsi hazırlanarkən dünyanın qabaqcıl ölkələrinin təcrübəsi öyrənilib, Azərbaycanın siyasi sisteminin və milli xüsusiyyətlərinin, bununla yanaşı, Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi haqqında tövsiyələri də nəzərə alınıb. Yenilənmiş layihədə sənədlərin toplanması ilə bağlı müddət artırılıb, partiyanın təsis edilməsi, qeydiyyatı, sənədlərin yoxlanılması ilə bağlı rəqəmlər isə azaldılıb.

Daha bir demokratik xüsusiyyət həm də budur ki, siyasi partiyanın dövlət qeydiyyatı, fəaliyyətinin dayandırılması və ləğvi ilə bağlı mübahisələrə apellyasiya məhkəməsi tərəfindən baxılır. Eyni zamanda, siyasi partiyaların müxtəlif məqsədlərlə təsis edilməsi və fəaliyyəti də qanunda öz əksini tapıb. Bütün bunlar isə bir faktoru ehtiva edir - Azərbaycan demokratik dəyərlərin və siyasi ənənənin daha yeni fazasına qədəm qoyur və bu gerçəklik ölkəmizin siyasi mühitinin ən mütərəqqi faktorlara söykəndiyini bir daha isbatlayır.

### Bu istiqamətdə atılan hər bir mütərəqqi addım Azərbaycan dövlətinin və vətəndaşlarının inkişafına yönəldilmiş addımlardır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təməlini atmış olduğu islahatlar siyasətinin davamlı parçası olan "Siyasi partiyalar haqqında" qanununun qəbulu da bu istiqamətdə mütərəqqi, yeni addımların atılmasına və ölkəmizin daha da güclü, qüvvətli, demokratik cəmiyyətinin formaıaşmasına böyük bir töhfə verəcəkdir, eyni zamanda atılan addımlar cəmiyyətin əksər qüvvələri tərəfindən tam şəkildə dəstəklənməkdədir. Şübhəsiz ki, ölkənin xarici və daxili siyasətində həyata keçirilən uğurlu tədbirlərin bir parçası da güclü cəmiyyətin formalaşması istiqamətində müxtəlif düşüncələrə, amma milli birlik və milli məqsəd naminə birləşmə gücünə sahib olan insanların bir və bərabər şəkildə sərbəst fikirlərini ifadə etmək üçün siyasi partiyalar daxilində fəaliyyətlərindən keçməkdədir. Bu istiqamətdə atılan hər bir mütərəqqi addım Azərbaycan dövlətinin və vətəndaşlarının inkişafına yönəldilmiş addımlardır.

# Savaşımın 60 anı - ÖMÜR KİTABI

İnsan ömrünün baharı, yayı, qışı onun yaşadığı illərə naxış salır və bu yolun sazağı, boranı, isti-si neçə-neçə illərin, qərinələrin bir dastanı olaraq həyat hekayəmizi yazır. 60 ilin payızında, ömrün payız çağında Tanrının yaratdığı Varlıq dönüb geri baxanda 60 yazını, qışını, yayını necə yola saldığını düşünür və özünə hesabat verir. Bu hesabat məsuliyyətli və gərgin anlarla ötmüş ömrün yazılmış kitabıdır. Tanınmış ictimai-xadim Fərəc Quliyevin qələmə aldığı "Savaşımın 60 anı" kitabı da onun yaşadığı illərin bir palitrasını göz önündə yaradır. Onun bioqrafiyası zəngindir və yaşadığı illər ömür yolunda bir mayakdır. Kitabın annotasiyasında qeyd olunduğu kimi, onun fəaliyyəti cild-cild kitaba sığmaz. Bütün məsələlərə vətən sevgisi və vətəndaşlıq məsuliyyəti ilə yanaşan F.Quliyevin kitabda yer almış hər bir yazısında onun fəaliyyəti, gördüyü illər mübarizə dolu fəaliyyəti ilə diqqəti cəlb edir. 22 dekabr 1962-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu Üstüpü kəndində anadan olan F.Quliyev Azərbaycan Tibb Universitetinin "Müalicə işi" fakültəsini fərqlənmə diplomu ilə bitirib və əlavə hüquq təhsili almışdır. 1989-cu ildə Sərhəd Hərəkatının ideoloq və təşkilatçılarından biri olmuşdur. F.Quliyev bu haqda belə yazır: "Azərbaycan 1813-cü və 1828-ci illərdə Rusiya və İran arasında Gülüstan, Türkmənçay müqavilələri ilə bölündükdən sonra zaman-zaman baş vermiş tarixi ədalətsizliyə etiraz edilmişdir. Amma Azərbaycanın çağdaş tarixində baş vermiş "Sərhəd hərəkatı" bütün dövrlər üçün yaddaqalan, əhəmiyyətli hadisə mahiyyətini daşıyır. Azərbaycanın bölünməsindən sonra bu ədalətsizliyə ən qüdrətli etiraz olan 1989-cu il dekabrın 31-də başa çatmış hərəkat, zaman keçdikcə əzəmətini və əhəmiyyətini ortaya qoyur". Müxtəlif vəzifələrdə çalışan F. Quliyev Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuş, Milli Məclisin Təhlükəsizlik, Müdafiə və Korrupsiya ilə Mübarizə Komitəsinin üzvü seçilmişdir. Avropa Parlamenti "Avronest" Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü olub. Azərbaycan-Belçika, Azərbaycan-Ukrayna, Azərbaycan-Türkiyə, Azərbaycan-Gürcüstan, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Moldova, Azərbaycan-Latviya, Azərbaycan-Ruminiya parlamentlərinin dostluq qruplarının üzvü olub.




Kitabda qeyd olunduğu kimi, 2002-ci ildə ildə Milli Dirçəliş Hərəkatını formalaşdırmış, təşəbbüs qrupunun qərarı ilə 7 may 2005-ci il tarixdə keçirilən 1-ci qurultayda Milli Dirçəliş Hərəkatı Partiyasının (MDHP) sədri seçilmişdir. İctimai-siyasi fəaliyyəti ilə yanaşı, bu günə qədər 5 kitab və yüzlərlə elmi-nəzəri məqalələrin müəllifidir. F.Quliyevin 60 illik ömrünə sığdırdığı zəngin ictimai-siyasi fəaliyyəti qeyd etdiyimiz bu və ya digər gördüyü işlərdə aydın şəkildə diqqəti cəlb edir. Gənclik dövrünün ilk illərindən başlayaraq, bu günə qədər sakit bir ömür yaşamayıb. Kitabda tarixi anları əks etdirən fotoların yerləşdirilməsi hər bir məqalənin sənədi ilə təsdiqində önəmlidir. Fərəc Quliyevin keçirilən müxtəlif tədbirlərdə çıxışı, qəbulları, səfərləri, görüşləri, müsahibələri və s. "Xaricdə yaşayan soydaşlarımıza və mütəxəssislərimizə müraciət", "Türkiyədə yaşayan Azərbaycan Türklərinin I Qurultayındakı çıxışı", "Türkiyə və Azərbaycan arasında daha bir saziş" və digər məqalələrdə onun görüşləri ilə tanış oluruq.

"Savaşımın 60 anı" kitabı ictimai-siyasi xadim F.Quliyevin həyat yolu ilə tanış olmaq istəyənlər üçün bir vəsaitdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Ekofəallarımız şaxtalı havaya baxmayaraq aksiyalarını davam etdirirlər"






"2022-ci ilin dekabrında azərbaycanlı ekofəalların Laçın yolunda aksiyalara başlamasının səbəbi hər kəsə bəllidir. Rus hərbçilərinin nəzarətində olan ərazilərimizdəki qeyri-qanuni mədən fəaliyyətlərinin həyata keçirilməsi, bu qanunsuz fəaliyyətin monitorinqi, onun ətraf mühitə vurduğu ziyanla bağlı dövlət strukturlarımızın nümayəndələrinin bu mədənlərə buraxılmasına maneə yaradılmasıdır". Bunu "Səs" qəzetinə açıqlamasında "Həftə içi" qəzetinin Baş redaktoru Sevinc Seyidova deyib.

Sevinc Seyidova bildirdi ki, aksiya iştirakçılarının 37 gündür ki, tələbləri yerinə yetirilmir: "Ona görə də, ekofəallarımız soyuq və şaxtalı havaya baxmayaraq aksiyalarını davam etdirirlər. 2022-ci ildəki ağır məğlubiyyətdən sonra Xankəndi və ətraf ərazilərə rus hərbçilərinin gəlişi, həmçinin Laçın yolundan maneəsiz istifadəyə imkan yaradılması separatçıları fəaliyyətlərini əvvəlki kimi davam etdirəcəyinə əminlik yaratmışdı. Azərbaycanın sülhməramlı amilindən çəkinərək Laçın yolunda hansısa addımlar atmayacağına inanırdılar. Lakin keçən il ərzində həyata keçirilən bir sıra antiterror əməliyyatları bunun heç də belə olmadığını ortaya qoydu. Azərbaycan tərəfi dəfələrlə Laçın yolundan ölkəmizin təbii sərvətlərinin qanunsuz talanması, hərbi silahların keçirilməsi, minaların daşınması, xarici ölkə vətəndaşlarının rəsmi Bakının icazəsi olmadan rus hərbçilərinin nəzarətindəki ərazilərə səfərlərinin təşkilinin qarşısının alınması ilə bağlı xəbərdarlıqlarla çıxış etmişdi. Lakin qarşı tərəf nədənsə bu xəbərdarlıqlara məhəl qoymurdu. Ekofəalların aksiyası nəticəsində isə bu gün Laçın yolu yalnız humanitar məqsədlərlə istifadə olunur. Yuxarıda qeyd olunan mənfi halların hələlik şahidi olmuruq. Digər tərəfdən, aksiya bütün Azərbaycan cəmiyyəti, siyasi rəhbərliyi tərəfindən tam dəstəklənir. Biz xalq olaraq bu məsələdə 44 günlük Vətən müharibəsində olduğu kimi vahid mövqedən çıxış edirik. Ona görə də, istənilən təzyiq və bəyanat bizi öz yolumuzdan döndərə bilməz. Bu səbəbdən aksiyalar haqlı tələblərimiz tam yerinə yetirilənə qədər davam etdirilməlidir. Hətta qarşı tərəfin vaxtı uzatmaq cəhdləri səngimədiyi halda tələblərimiz daha da sərtləşdirilməlidir".

***Gülyana***



Elçin Bayramlı

# Rayonla şəhərin fərqi

**Son vaxtlar bəzi deputatlar tərəfindən ortalığa yeni bir ideya atılıb. Rayon məfhumu, ümumiyyyətlə inzibati bölgü dəyişdirilsin deyə. Bu təkliflərin mahiyyətində nə dayandığı haqda mətbuatda müxtəlif fikirlər səsləndirilir. Nə bilim vallah, biri deyir, bu rayonları iri qəzalarda birləşdirib daha rahat idarə etmək üçündür, digəri deyir, bununla dövlət xərclərini azaltmaq olar, o biri deyir ki, burda nəsə psixoloji məqamlar var. Adam bilmir kimə inansın**

Ümumiyyətlə, son vaxtlar insanların illərlə öyrəşdiyi məkanları, avtobus nömrələrini, yer adlarını dəyişdirmək prosesi gedir. Bunu əldə bayraq edən bəzi ağzıgöyçəklər orda-burda danışırlar ki, bəs bu proses zombiləşməyə aparır, insanların xatirələrinin, yaddaşlarının silinməsinə gətirib çıxarır.

İnamını yandıra bilmərəm, Avropa psixoloqlarının hansınınsa bununla bağlı əsərini oxumuşdum. Orda adam sübut edirdi ki, insanların gördüyü şeylərin tez-tez dəyişməsi onların yaddaşının silinməsinə səbəb olur. Hətta, faşist konslagerlərində həyata keçirilmiş belə bir eksperimentdən nümunə də gətirmisdi.

Şəxsən mən belə cızmaqaralara inanmaram, nə olsun avropalı yazıb, bəyəm Avropada hamı ağıllıdır? Amma, bu avropalılar yaman mövhumatçıdırlar, parapsixoloji cəfəngiyyatlara inanırlar. Görmürsünüz, tarixi binaları, abidələri necə qoruyurlar? Radikal konservatorlardır, bunlarda bircə damçı kreativlik, novatorluq deyilən qabiliyyət yoxdur.

Nədən danışıqdıq, hara gəlib çıxdıq. Həə, əslində mənim hüzurunuzda ərz eləmək istədiyim məsələ bir az ayrıdır. Bu da, alimli, jurnalistli, müəllimli az qala bütün xalqımızın inzibati-coğrafi ərazi bölgüləri haqda yanlış fikirdə olmasından ibarətdir.

Məsələn, bizim ölkədə şəhər deyiləndə ancaq Bakı nəzərdə tutulur. Tutaq ki, biri ölkənin başqa bir şəhərindən- məsələn, Mingəçevirdən Bakıya gələn adamdan soruşurlar ki, "kənddə nə var, nə yox?" və ya "irayonda vəziyyət necədir?". Halbuki, Mingəçevir nə rayon deyil, nə də kənd, 120 minə yaxın əhalisi olan şəhərdir.

Yaxud bölgələrdən (lap elə Sumqayıtdan) Bakıya gedəndə "şəhərə gedirəm" deyirlər. "Hansı şəhərə"-deyə soruşsan sənə "dəvə nalbəndə baxan kimi" baxacaqlar. Çoxları "paytaxt" sözü ilə "şəhər" sözünü sinonim kimi anlayır.

Qəbul olunmuş normalara görə, əhalisinin yarıdan çoxu qeyri-aqrar sektorda çalışan, müasir infrastruktura mailk olan yaşayış məntəqələri şəhər statusu ala bilər. Şəhərin öz göstəriciləri var- bunun böyük və ya kiçikliyi, paytaxt və ya region şəhəri olması əhəmiyyət kəsb etmir. Məsələn, Danimarkada əhalisi 2000 nəfəri ötən bütün yaşayış məntəqələri şəhər statusu daşıyır.

Rayon anlayışı isə, inzibati ərazi vahidi olaraq özündə çoxsaylı yaşayış məntəqələrini (şəhərlər, qəsəbələr, kəndlər) və coğrafi məkanları (dağlar, çaylar, göllər, düzlər və s.) birləşdirən məhfumdur. Adətən rayonun inzibati mərkəzi şəhər olur. Elə rayonlar var ki, orada 2 şəhər var- (məs. Lənkəran, Tovuz, Xaçmaz, Cəlilabad və s.).

Amma iri şəhərlərin özləri də (Bakı və Gəncə) rayonlara bölünür. Bu o deməkldir ki, Bakıda yaşayan hər kəs eyni zamanda rayon sakinidir. Məsələn, Nəsimi rayonunun sakini. Şəxsən mənə çox maraqlıdır, niyə 75 şəhəri olan ölkədə "şəhər" deyiləndə yalnız Bakı nəzərdə tutulur? Niyə digər böyük şəhərlərə (məs. Gəncə, Mingəçevir, Şirvan və s) rayon deyilir?

Bir çox hallarda bu cür ifadələri ziyalılar, deputatlar, nazirlər belə işlədir. Dövlət orqanlarının saytlarında, mediada belə bu cür gülünc səhvlər verilir. Televiziyalarda və rəsmi mətbuatda belə rayonla şəhərin fərqini anlamırlarsa, o zaman savadsız insanlardan nə gözləmək olar?

# 20 Yanvar- SSRİ-nin süqutuna aparan faciə

## SSRİ-nin dağılmasının əsasını qoyan əsas hadisələrin birindən 33 il ötür

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb*

Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 yanvarında ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistan SSR-in təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbəri Mixail Qorbaçovun onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı ordu hissələrinin yeridilməsi Azərbaycan SSR-in paytaxtında qan tökülməsi ilə nəticələndi.

Günahsız insanların ölümü ilə nəticələnən 20 Yanvar faciəsi Mixail Qorbaçovun Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, buna etirazını bildirən xalqımızın mübarizliyini, əyilməzliyini nümayiş etdirdi.

Respublikamızın ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhalinin güllə-baran edilməsi, yüzdən artıq günahsız insanın qətlə yetirilməsi yüzlərlə insanın yaralanması nəticəsində daha da alovlanan xalq etirazları SSRİ-nin dağılmasının əsasını qoydu. Həmin vaxt Azərbaycan qonşu Ermənistanın təcavüzünə məruz qalmışdı. Belə bir şəraitdə Sovet İttifaqı KPMK-nin baş katibi Qorbaçov və ordu rəhbərliyindəki satqınlar nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, bu münaqişəni qızışdırmaq üçün hər şeyi etmişdilər.

Mixail Qorbaçov Bakıda "erməni poqromları" kartından məharətlə istifadə etdi. Guya Bakıya qoşun "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində, isə bu açıq riyakarlıq, ağ yalan idi.

Bu "dəlillər" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya ordu yeritməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı.

SSRİ Müdafiə Nazirliyinin, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" qrupları oynayırdı. Ordunun şəhərə yeridilməsi nəticəsində Bakıda 137 vətəndaş həlak oldu, 700-dən çox adam yaralandı. Öldürülənlər arasında 5 millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi.

SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan SSR Dövlət Televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və insanlara atəş açdı. Qorbaçovun fərmanı qüvvəyə minənədək (20 yanvar, saat 00:00) artıq 9 nəfər öldürülmüşdü.










Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Halbuki, Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaq. Bax, əli yüzlərlə insanın qanına batmış, sonralar Sovet xalqına və dövlətinə qarşı təxribatlarına görə Nobel sülh mükafatı almış, erməni mafiyasının əlaltısına çevrilmiş Mixail Qorbaçovun rəzil siması bu idi...

"20 Yanvar"ın indiyədək özündə saxladığı sirlər çoxdur. 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılıb və bir daha geri qaytarılmayıb. Azərbaycan xalqının məruz qaldığı bu təcavüz indiyədək bəşəriyyət əleyhinə cinayət kimi beynəlxalq müstəvidə layiq olduğu təsnifatı almayıb.

Bu hadisələrə emosiya, kədər, yaxud mübarizlik salnaməsi kimi pafoslu münasibətlə bərabər, bir qədər də soyuqqanlı olub, o hadisələrin gerçək mahiyyətini dünya birliyinin, çeşidli beynəlxalq təşkilatların önünə qoymaq barədə düşünməli, 20 Yanvara beynəlxalq-hüquqi qiymətin verilməsinə çalışmalıyıq.

"Şit" təşkilatı ekspertlərinin hesabatından:

-Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdur;

-xəstəxanalar, təcili yardım maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdür;

-adamlar süngü-bıçaqla qətlə yetirilmişdir. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var;

-"Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir.

Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi. Qorbaçovun və ətrafındakıların "millətçi ekstremistlər" adlandırdıqları bunlar idimi?

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın yolunda canlarından keçdilər.

Faciənin ertəsi gün o vaxt Moskvada yaşayan Heydər Əliyevin Azərbaycan nümayəndəliyinə gələrək bu kədərə şərik çıxması, sovet rəhbərliyinin Bakıda törətdiyi hərbi cinayəti pisləməsi xalqımıza güc verdi, ona böyük dayaq oldu.

Bu hadisələrdən bir müddət sonra - 1990-cı ilin noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxış edən ümummillim lider faciə barədə danışarkən deyirdi: "Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır... Bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər".

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonrakı ilk illərdə başları hakimiyyət uğrunda mübarizəyə qarışmış respublika rəhbərləri 20 Yanvar qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Yalnız 1994-cü ildə Qanlı Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verildi, faciənin günahkarlarının adları açıq şəkildə bəyan edildi.

Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin fədakarlığını, Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək deyib: "Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır".

Ulu öndər Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra mühüm addımlar atmış, qərarlar qəbul etmişdi. Bu siyasəti davam etdirən Prezident İlham Əliyevin Sərəncamına əsasən 2007-ci ildə Şəhidlər Xiyabanı vahid kompleks kimi yenidən qurulub.

Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanıdır. Hər il yanvarın 20-də yüz minlərlə insan Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edir. Nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır.

***Elçin***

Səs

18 yanvar
2023-cü il



## Bu futbolçu həftədə 1 milyon 656 min manat qazanır!

Ötən yay Dortmund "Borussiya"sından İngiltərənin "Mançester Siti" klubuna transfer olunan Erlinq Halandın "şəhərlilər"lə imzaladığı müqavilədəki bəzi detallar məlum olub.

Qol.az xəbər verir ki, bu barədə "Daily Mail" məlumat yayıb. 22 yaşlı forvard klubda həftəlik 900 min avro (1?656?000) maaş alır. O, 5 illik müqavilə müddətində ümumilikdə 180 milyon avro qazanacaq. Qeyd edək ki, Haaland "Siti" ilə 2022-ci ilin may ayında 5 illik sözləşməyə qol çəkib. O, bu mövsüm 24 matçda 27 qol vurub, 3 qolun ötürməsini verib.

# Dövlət qulluğuna hazırlaşanlar ən çox nədən əziyyət çəkir?







**TƏHSİL EKSPERTİ İZAH ETDİ**

"İlk növbədə qeyd edim ki, 2016-cı ildən etibarən dövlət qulluğuna qəbul imtahanlarını Dövlət İmtahan Mərkəzi həyata keçirməyə başlayıb. Etiraf edək ki, imtahanların məzmununda, test tapşırıqlarının strukturunda biz ciddi bir dəyişiklər görürük. Hesab edirəm ki, dövlət qulluğuna qəbul imtahanlarında da müəyyən sadələşdirilmələrə ehtiyac var. Çünki hal-hazırda mövcud qaydalar müəyyən qədər problemdir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, imtahanlar əsasən 2 mərhələdən ibarətdir: "Test imtahan mərhələsi və test imtahanından sonra müsahibə şərtini ödəyənlərin müsahibə mərhələsi. Ən ciddi problem təbii ki, müsahibə mərhələsində baş tutur. Çox təəssüflər olsun ki, müsahibə mərhələsində bir çox hallarda dövlət qulluğuna qəbulda imtahan iştirakçılarına problemlər yaradılır. Yəni, hal-hazırda biz problemləri iki hissəyə bölürük. 1-ci müsahibə mərhələsində süni şəkildə yaradılan problemlər, yəni bir çox hallarda çıxarılan vakant yerlər əslində vakant olmur. Onlar dövlət qulluğuna yaxın olan şəxslər tərəfindən tutulur. Amma onlar test imtahanından keçə bilmirlər. Müsahibəyə gələn həmin adi vətəndaşlar da süni şəkildə komissiya tərəfindən az balla qiymətləndirilir və yararsız elan edilir. Biz bu problemləri mütəmadi olaraq müşahidə edirik".

Kamran Əsədov sözlərinə belə davam edib: "2-ci test tapşırığının məzmunu ilə bağlıdır. Bir çox hallarda keçirilən imtahanlardan sonra imtahan iştirakçıları bununla bağlı iradlarını bildirirlər. Təqdim edilmiş suallar daha çox nəzəri bacarıqları yoxlayır, o qədər incə materiallar, rəqəmlər soruşulur ki, etiraf edək dövlət qulluğuna qəbul üçün ən azı 8-9 qanunu oxumaq lazımdır və heç də imtahan iştirakçılarının hamısı humanitar sahədə hüquq və yaxud da ki politologiya bu tipli ixtisaslarda oxuyan şəxslər deyillər. Onlar texniki təbiət fənnlərini oxuyurlar və onlar üçün qanunvericilik kifayət qədər yeni və çətindir. Düzdür, bu suallarla daha yaxşı bilik və bacarıqlara malik olan şəxslərin seçilməsi nəzərdə tutulur. Amma sualların tipi, forması bəzi hallarda daha yaxşı şəxslər seçməyə imkan vermir, mövcud qaydalar daha çox əzbərləmək imkanına malik olan şəxsləri seçimə imkan verir. Yəni, hal-hazırda biz daha çox sualların məzmunu ilə bağlı şikayətləri görə bilirik və hesab edirəm ki, praktiki suallara üstünlük versək, daha yaxşı olar. Əzbərləyib yüksək bal toplayan amma perspektivi olmayan şəxsdənsə, onunla müqayisədə 5-6 bal az toplayan, amma həqiqətən də dövlət qulluğu üçün perspektivi olan şəxslər seçilə bilərlər.

Digəri də hesab edirəm ki, keçid balları ən azı beş bal aşağı salınsa daha da rəqabət mühiti artar, eyni zamanda gənclərin boş vakant yerlərə təminatının faizi yüksələr. Biz görürük ki, bir çox yerlərə vakant yerlər tutulmur. Müəyyən qədər keçid ballarında kateqoriyalar üzrə aşağı enmələr olsa daha yaxşı olardı".

***Ayşən Vəli***

## Bir gündə yol qəzalarında 3 nəfər ölüb



Ötən gün yol qəzalarında 3 nəfər ölüb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib. Qeyd olunub ki, respublikanın avtomobil yollarında ölümlə nəticələnən 3 yol-nəqliyyat hadisəsi baş verib və nəticədə 3 nəfər ölüb.

## Kriminoloji xəbərlər insanlara necə təsir göstərir?

**"Ümumiyyətlə, kriminoloji və yaxud insanlarda stress yaradacaq digər xəbərlərin olması təbii ki, onların psixologiyasına birbaşa mənfi təsir göstərir. İlk öncə onu qeyd etməliyik ki, stress özü də emosional və informativ olmaqla iki yerə ayrılır. İnformativ stress nəticəsində azyaşlı uşaqlarda fobiyaların, yeniyetmələrdə özünü büruzə verəcək depressiv halların, qorxu hissinin yaranmasına səbəb olur". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.**



Onun sözlərinə görə, kriminoloji xəbərlər insanlarda informativ stresslə yanaşı düşüncə pozuntusunun yaranmasına və güvən probleminə gətirib çıxarır: "Qohumluq əlaqələrinin qurulmasında birbaşa özünü göstərəcək kriminoloji xəbərlər var ki, ailədə inamsızlığa səbəbiyyət yaradır. İnsanlar gözəl ailəsi olduğunu, belə şeylərin başına gəlməyəcəyini düşünə bilərlər. Amma onlar ailəsindəkilərin hansı insan tipinə aid olduğunu bilmirlər. Ona görə də əgər ailədə bu xəbərlərdən təsirlənərək eşitdiyi və ya gördüklərini həyata keçirmək istəyənlər varsa, bunu anlaya bilməyəcəklər. Odur ki, insanların bilavasitə psixologiyasına təsir edəcək xəbərləri yayanda çox diqqətli olmalıyıq".

***Ləman Əlizadə***



## BAŞSAĞLIĞI

ADNS-in əməkdaşları C.M.Mustafayev və Y.P.Əhmədov Universitetin İ.T departamentinin direktoru Salman Salmanova anası

**Nazilə xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**